‘KASPİ’ QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

17 AVQUST ŞƏNBƏ 2024 № 31 (4182) Qiyməti - 40 qəpik www.kaspi.az



## FORPOSTUN BEŞ ADAXLISI

Ermənistanın yeni himayədar axtarışı genetik xəyanətin məntiqi yekunudur. Paşinyan Ermənistanının Rusiyadan boşanması yarımçıq təəssürat yaradır: tərəflərdən biri ayrılmaq arzusunu bildirsə də, özünə taməsaslı yeni adaxlı tapa bilmədiyindən izdivaca son qoya bilmir.

SƏHİFƏ 4-də



## PUTİN AZƏRBAYCANA SƏFƏR EDƏCƏK

Dünyada qütbləşmələrin kəskinləşdiyi məqamda Azərbaycan bütün tərəflərlə səmərəli və sabit münasibətlərə malikdir. Rusiya Prezidenti Vladimir Putinin ikigünlük dövlət səfərini də məlum prizmadan qiymətləndirə bilərik.

SƏHİFƏ 2-də

### “BİZ GƏNC NƏSLİMİZLƏ HAQLI OLARAQ FƏXR EDƏ BİLƏRİK”

# VERİLƏN DƏYƏRİN ƏYANİ NƏTİCƏSİ

İdmançılarımızın Paris Yay Olimpiya Oyunlarında qazandıqları medallar sayəsində Azərbaycan dünya ölkələri arasında 30-cu, müsəlman ölkələri arasında isə üçüncü yeri tutub. Qeyd edək ki, idmançılarımız 2 qızıl, 2 gümüş və 3 bürünc medal qazanıblar.




**AZƏRBAYCAN GÜCLÜ İDMAN DÖVLƏTİDİR**

Ölkə başçısı, Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyev avqustun 14-də XXXIII Paris Yay Olimpiya Oyunlarında medal qazanmış Azərbaycan idmançıları və onların məşqçiləri ilə görüşündə də olimpiya komandamızın iştirakına yüksək dəyər verib.

**PARİSDƏ ƏLDƏ OLUNAN TARİXİ UĞUR**

Prezident İlham Əliyev bildirib ki, müsəlman ölkələri arasında Azərbaycan üçüncü yerdə qərarlaşıb: “Nəzərə alsaq ki, İslam Əməkdaşlıq Təşkilatında 57 üzv mövcuddur, hesab edirəm, bu, çox gözəl və tarixi nəticədir”.

SƏHİFƏ 3-də



## GÜRCÜSTAN-QƏRB QARŞIDURMASI PİK HƏDDƏ

Parlament seçkiləri yaxınlaşdıqca Qərblə qonşu Gürcüstan arasında iplər daha da gərilib. Artıq hakim partiya təmsilçiləri ABŞ və Avropa İttifaqı ölkələrini daxili işlərinə qarışmaqda, müxalifət isə iqtidarı Rusiya ilə yaxınlaşmaqda ittiham edir.

SƏHİFƏ 6-da



## XARİCDƏ İŞ ÜÇÜN DÜŞÜNÜLƏN TƏLƏLƏR

Hazırda “Avropada işə düzəldirik” deyən şirkətlərin sayı kifayət qədərdir. Vətəndaşlar müəyyən ödəniş qarşılığında həmin şirkətlərin xidmətlərindən istifadə edirlər. Zaman-zaman bu şirkətlərin qanunsuz əməllərinin, vətəndaşları yalançı vədlərlə aldatdıqlarının şahidi oluruq.

SƏHİFƏ 11-də



## BƏZƏK ƏŞYASINDAN İNVESTİSİYA ALƏTİNƏ DOĞRU

Bu günlərdə dünya birjalarında qızılın qiyməti növbəti rekord vurub. Hər keçən gün insanların qızıla marağının artdığı müşahidə edilir. Azərbaycanda da qızıl artıq təkcə bəzək əşyası kimi deyil, etibarlı investisiya aləti kimi nəzərdən keçirilir.

SƏHİFƏ 12-də

### “Hər təcrübə istədiyimiz nəticəni vermir”

## “ƏSAS MƏQSƏDİM AZƏRBAYCANA NOBEL MÜKAFATINI GƏTİRMƏKDİR”



Oksfordda onkologiya üzrə təhsil alan ilk azərbaycanlı tələbə Gülnar Abdullayeva: “Müəyyən bir məqsədə doğru gedəndə həmişə maneələr olur və bu, normaldır. Amma bu problemləri sırf təcrübə kimi qəbul edəndə, onların öhdəsindən asanlıqla gəlirsən. Səbir və əzmkarlıq əsas şərtlərdəndir”.

SƏHİFƏ 8-9-da



## “ORKESTR ÇOXDANIŞAN DİRİJORU SEVMİR”

Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının dirijoru Əyyub Quliyev: “Konsert zamanı orkestrin quruluşuna, dirijorun funksiyalarına diqqət edirdim. Anladığım da olurdu, anlamadığım da. Amma marağım hədsiz idi. Atam bunu görüb meylimin nəyə olduğunu başa düşdü”.

SƏHİFƏ 15-də



Qiymətin təzəsi, maşının köhnəsi

SƏHİFƏ 7-də



Müəllimlərin ən yaralı yeri

SƏHİFƏ 10-da



“Zadəgan içkisi”nə artan maraq

SƏHİFƏ 13-də



Turizmdə yeni marşrut gözləntisi

SƏHİFƏ 14-də



“Zirə” “Qarabağ”ı tək qoymadı

SƏHİFƏ 16-da




# SOCAR yeni hasilat quyusunu istismara verib

Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Günəşli" yatağında yeni hasilat quyusunu istismara verib. "Report"un SOCAR-a istinadən verdiyi məlumata görə, "Günəşli" yatağında mürəkkəb 341a saylı quyu yan lülə qazmasından sonra gündəlik 32 ton hasilatla işə düşüb.

Bildirilib ki, quyuda baş verən mürəkkəbləşmələrə baxmayaraq, SOCAR əməkdaşlarının birgə səyləri nəticəsində uğurlu nəticə əldə edilib.

Xatırladaq ki, "Günəşli" yatağı Bakı şəhərindən 120 km şərqdə, "Neft Daşları" yatağından 12 km cənub-şərqdə Xəzər dənizinin Azərbaycan sektorunda yerləşir. "Günəşli" qırışığı "Çilov-Neft Daşları" antiklinal qırışıqlıq qurşağına daxildir. Yataqda dənizin səviyyəsi 80-300 metr aralığında dəyişir. Yatağın uzunluğu 12,5 km, eni 4 km-dir.

Hazırda "Günəşli" yatağında, ümumilikdə, 370 quyu qazılıb ki, onlardan 279 quyu istismardadır. İşlənmənin əvvəlindən bu quyulardan 201,3 milyon ton neft (kondensatla birlikdə), 127 milyard m3-dən çox qaz hasil olunub.

Qeyd edək ki, "Günəşli" yatağında maksimum hasilat 1991-ci ilə təsadüf edib. Həmin il 114 işlək quyudan 6,7 milyon ton neft çıxarılıb. Maksimal qaz hasilatı isə 2008-ci ildə 6,6 milyard kubmetr olub. Hazırda yataq işlənmənin III mərhələsindədir. Yataq SOCAR-ın "Azneft" İstehsalat Birliyinin 28 May adına Neft-qazçıxvarma İdarəsi tərəfindən istismar olunur.



# Oxçuçayın çirkləndirilməsi davam edir

Oxçuçayın dağ-mədən sənayesinin tullantıları ilə çirkləndirilməsi davam edir. "Report" xəbər verir ki, bu sözləri Baş prokuror Kamran Əliyev avqustun 16-da Naxçıvanda keçirilən "Ekoloji su hüquqpozmalarının iqlim dəyişikliyinə təkan verməsi" mövzusunda elmi-praktiki konfrans zamanı qeyd edib. O, Xankəndidən sonra növbəti konfransın Naxçıvanda keçirilməsinin xüsusi əhəmiyyət kəsb etdiyini söyləyib: "Uzun müddət davam etmiş Azərbaycan və Ermənistan münaqişəsinin gedişatında təəssüflər olsun ki, Araz çayının sahilyanı və dib çöküntüləri kimyəvi, radioaktiv tullantılarla məqsədyönlü olaraq çirkləndirilib. Hazırda da Ermənistan ərazisindən keçməklə ölkəmizə daxil olan çayların, xüsusən də Araz və onun qolu olan Oxçuçayın dağ-mədən sənayesinin tullantıları ilə çirkləndirilməsi davam edir".

# PUTİN AZƏRBAYCANA DÖVLƏT SƏFƏRİ EDƏCƏK

Dünyada qütbləşmələrin kəskinləşdiyi məqamda Azərbaycan bütün tərəflərlə səmərəli və sabit münasibətlərə malikdir. Rusiya Prezidenti Vladimir Putinin ikigünlük dövlət səfərini də məlum prizmadan qiymətləndirə bilərik.





AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Rusiya Prezidenti Vladimir Putin avqustun 18-19-da Azərbaycana dövlət səfəri edəcək. "Report" TASS-a istinadən xəbər verir ki, bu barədə Kreml məlumat yayıb. Rusiya-Azərbaycan münasibətlərinin gələcək inkişafı, strateji tərəfdaşlıq və müttəfiqlik məsələləri, eləcə də aktual beynəlxalq və regional problemlər müzakirə olunacaq. Səfərin yekunları üzrə bir sıra sənədlərin imzalanması planlaşdırılır.

Hazırda dünyada qütbləşmələrin kəskinləşdiyi, qarşıdurmaların artdığı bir məqamda Azərbaycan bütün tərəflərlə səmərəli və milli maraqlara uyğun sabit münasibətlərə malikdir. Bu fakt özlüyündə Prezident İlham Əliyev tərəfindən müəyyənləşdirilən və uğurla davam etdirilən xarici siyasət kursunun müasir dövrün çağırışları ilə ayaqlaşdığının, hətta bir çox məqamlarda bu çağırışları qabaqladığının göstəricisidir.

**ƏKS QÜTBLƏRİN GÖRÜŞƏ BİLƏCƏYİ MƏKAN**

Bakı tək Moskva ilə deyil, eyni zamanda onun hazırda müharibə vəziyyətində olduğu Ukrayna, Qərb dövlətləri, ABŞ, hətta İran və Çinlə də əməkdaşlığındakı müsbət dinamikanı qoruyub saxlaya bilib. Bunun məntiqi nəticəsi olaraq, Bakı bu gün dünyanın əks qütblərinin bir araya gələrək müzakirələr apara biləcəyi azsaylı məkanlardan biri kimi qəbul edilir. Biz bunun nümunələrini yaxın keçmişimizdə də görmüşük.



## İKİ VACİB İSTİQAMƏT

Bu siyasətin əsasını dövlətin ali rəhbərliyinin dərin diplomatik zəkası, eyni zamanda xarici siyasət kursumuzun əsaslandığı iki vacib istiqamət - mehriban qonşuluq və balanslı yanaşma təşkil edir. Hazırda Azərbaycanın xarici siyasət kursunun qarşısında dayanan başlıca vəzifələrdən biri Cənubi Qafqazın yeni bir münaqişə bölgəsinə çevrilməsinin qarşısını almaq, iqtisadi inkişaf və inteqrasiyanı təmin etmək, bölgə dövlətlərinin bəzi məsələlərdə toqquşan maraqlarının güc yolu ilə deyil, danışıqlar yolu ilə həllinə nail olmaqdır. Bu məqsədlərə nail olmaq üçün Azərbaycan müxtəlif əməkdaşlıq platformaları təklif edir. Buraya "3+3", ayrı-ayrı dövlət başçılarının birgə müzakirələrini nəzərdə tutan üçlü formatlar və sair daxildir.

## DƏRİNLƏŞƏN QARŞILIQLI ƏLAQƏLƏR

Rusiya Prezidenti Vladimir Putinin Azərbaycana nəzərdə tutulan ikigünlük dövlət səfərini də məlum prizmadan qiymətləndirə bilərik. Azərbaycan və Rusiya dövlət başçılarının siyasi iradəsinə uyğun olaraq hazırda iki ölkə arasında münasibətlər yüksələn xətt üzrə sürətli inkişafdadır. Ölkələrimiz arasında mütəmadi olaraq yüksək səviyyəli qarşılıqlı səfərlər reallaşır. Dövlətlərin ali rəhbərlərinin ikili görüşləri keçirilir. Bu gün Rusiya ilə Azərbaycan arasında geniş hüquqi baza rolunu oynayan 260 sənəd imzalanıb. 2020-ci il 44 günlük müharibə və 2023-cü il bir günlük antiterror əməliyyatlarından sonra bu münasibətlər tamamilə yeni bir mərhələyə keçib. Bakı-Moskva əlaqələrinin inkişafı həm də Cənubi Qafqazda başlıca sabitləşdirici amil kimi də qiymətləndirilə bilər.

**REALLIĞA ƏSASLANAN XARİCİ SİYASƏT**

Tarixi qələbəmizdən sonra xarici siyasət kursumuzun daha real siyasətə əsaslanması və qurulan əlaqələrdə bərabərhüquqluluq, qarşılıqlı hörmət prinsiplərinə riayətin tələb edilməsi xarici diplomatiyamızın qarşısında yeni bir mərhələnin başlanğıcıdır desək, yanılmarıq. Bu siyasətin uğurlu olmasının kökündə həm də yeni reallıqlar yaradan separatizm, işğal və erməni revanşizmi üzərindəki qələbəmiz dayanır.

# VERİLƏN DƏYƏRİN ƏYANİ NƏTİCƏSİ



**İdmançılarımızın Paris Yay Olimpiya Oyunlarında qazandıqları medallar sayəsində Azərbaycan dünya ölkələri arasında 30-cu, müsəlman ölkələri arasında isə üçüncü yeri tutub. Qeyd edək ki, idmançılarımız 2 qızıl, 2 gümüş və 3 bürünc medal qazanıblar.**



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Azərbaycan idmançıları Paris Yay Olimpiya Oyunlarında növbəti dəfə ölkəmizi layiqincə təmsil etdilər. Əldə edilən nəticələr ölkənin ali rəhbərliyi, cəmiyyətimiz tərəfindən də yüksək qiymətləndirilib. Məhz bunun nəticəsidir ki, Azərbaycan budəfəki olimpiya oyunlarında iştirak edən ölkələr arasında 30-cu yeri tutub. Bu, müstəqil Azərbaycanın Olimpiya Oyunlarında əldə etdiyi ən yaxşı göstərici hesab edilir.

### "AZƏRBAYCAN GÜCLÜ İDMAN DÖVLƏTİDİR"

Ölkə başçısı, Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyev avqustun 14-də XXXIII Paris Yay Olimpiya Oyunlarında medal qazanmış Azərbaycan idmançılarını və onların məşqçiləri ilə görüşündə də olimpiya komandamızın iştirakına yüksək dəyər verib. Dövlət başçısı bildirib ki, Olimpiya Oyunları bütün digər idman yarışları arasında xüsusi yer tutan bir yarışdır, dörd ildən bir keçirilən idman bayramıdır və əlbəttə ki, hər bir idmançı, hər bir ölkə bu Oyunlara xüsusilə hazırlaşır: "Bizim Olimpiya Oyunlarındakı uğurlarımız əvvəlki illərdə də, son Oyunlarda da göstərir ki, Azərbaycan güclü idman dövlətidir. Təsadüfi deyil ki, biz bu Oyunlarda dünyanın ən güclü 30 ölkəsinin arasında yer almışıq - 2 qızıl, 2 gümüş və 3 bürünc medal, hesab edirəm ki, çox yaxşı nəticədir".

Əslində olimpiya oyunları həm də müxtəlif idman növləri ilə bağlı müvafiq federasiyaların, qurumların dörd illik hesabatıdır desək, yanılmarıq.



Hər bir növbəti olimpiadaya hazırlıq məhz özündən əvvəlkindən dərhal sonra başlayır. Bu mənada Paris Olimpiadası da istisna deyil.

Qızıl medalçılarımız Hidayət Heydərov və Zelim Kotsoievi təbrik edən dövlət başçısı da bu məqama xüsusi vurğu edib. "Onların məşqçilərini təbrik edirəm, Cüdo Federasiyasının rəhbərliyini təbrik etmək istəyirəm. Federasiyada işlər, təlim-məşq prosesi düzgün qurulanda, ab-hava gözəl olanda nəticə də əlbəttə ki, göz qabağındadır" - dövlət başçısı deyib.

Prezident İlham Əliyev də bildirib ki, müsəlman ölkələri arasında Azərbaycan üçüncü yerdə qərarlaşıb: "Nəzərə alsaq ki, İslam Əməkdaşlıq Təşkilatında 57 üzv mövcuddur, hesab edirəm, bu, çox gözəl və tarixi nəticədir. Bütövlükdə komandamızın çıxışına qiymət verərək mən hesab edirəm ki, bizim idmançılarımız ən yüksək qiymətə layiq olmalıdır".

### "DAHA ÇOX MEDAL QAZANA BİLƏRDİK"

Oyunların gedişində bəzi idmançılarımızın potensialının daha yüksək olduğunu, daha yaxşı çıxış edə biləcəklərini də gördük. Dövlət başçısının da vurğuladığı kimi, daha çox medal qazana bilərdik. Amma bu, idmandır, idmanda qələbə də olur, məğlubiyyət də: "Əsas odur bu Oyunlar bir daha göstərdi ki, Azərbaycanda idmanın inkişafı ardıcıl surətdə gedir. Onu da bildirməliyəm ki, bizim idmançılarımız beş idman növündə medallar qazanmışlar: cüdo, boks, taekvondo, yunan-Roma güləşi, sərbəst güləş üzrə. Yəni, bu da onu göstərir ki, Azərbaycanda idmanın bir çox növləri inkişaf edir".

## MÜVAFİQ SƏLAHİYYƏTLİLƏR QARŞISINDA QOYULAN TƏLƏBLƏR

İndi qarşıda yeni dördillik hazırlıq prosesi var. Növbəti olimpiadanın uğur təməlləri indidən atılmalı, çatışmazlıqlar əvvəlcədən müəyyənləşdirilərək ciddi hazırlığa start verilməlidir.

Milli Olimpiya Komitəsinin Prezidenti kimi İlham Əliyevin müvafiq səlahiyyətlilər qarşısında qoyduğu tələblər də məlumdur. Dövlət başçısı deyib ki, indi müəyyən istirahətdən sonra yeni hazırlıq prosesinə start veriləcək, həm Avropa, həm dünya çempionatlarına hazırlıq işləri gedəcək: "Əlbəttə ki, biz növbəti Olimpiya Oyunlarına da indidən hazırlaşmalıyıq. Bir neçə idman növündə nəsillərin dəyişməsi prosesi gedir. Ona görə təbii ki, biz növbəti Olimpiya Oyunlarına bu prizmadan yanaşmalıyıq və xüsusilə uşaq-yeniyetmə idmanına bundan sonra da diqqət göstərilməlidir. Nəzərə alsaq ki, idmanla məşğul olmaq üçün indi ölkəmizin hər bir yerində gözəl şərait var. İdmana rəhbərlik edən qurumlar arasında koordinasiya işləri düzgün qurulub, federasiyalar, klublar uğurla fəaliyyət göstərir". Prezident növbəti Olimpiya Oyunlarına hazırlıq prosesinin ardıcıl aparılacağına əminliyini ifadə edib.



### "BİZ GƏNC NƏSLİMİZLƏ HAQLI OLARAQ FƏXR EDƏ BİLƏRİK"

Prezidentin də vurğuladığı kimi, bu gün Azərbaycanda gənclərin idman yarışlarına marağı həddən artıqdır. Bunun başlıca səbəbi isə dövlət olaraq idmanın inkişafı, əldə edilmiş uğurlara görə idmançılara göstərilən diqqətdir. Həqiqətən də hər Olimpiya Oyunlarından sonra gənclər arasında qızıl medal əldə edilən idman növünə kütləvi axın müşahidə edilir. Bu axın həm də gələcək qızıl medalçıların seçim imkanlarını genişləndirir. Bu fakt Prezident İlham Əliyev tərəfindən də təsdiqlənir. Dövlət başçısı olimpiya mükafatçıları ilə görüşdə həm cüdo, həm digər idman növləri ilə məşğul olmaq istəyən uşaqlarımızın sayının çox olacağına əminliyini ifadə edib: "Uzun illər ərzində idmanın kütləviliyi ilə bağlı dediyim sözlər və verdiyim tapşırıqlar bir məqsədi güdür ki, fiziki, mənəvi cəhətdən sağlam, Vətənə bağlı, vətənpərvər və peşəkar gənc nəsil yetişsin. İdmançılarımızın uğurlu çıxışları bunu bir daha göstərdi ki, biz gənc nəslimizlə haqlı olaraq fəxr edə bilərik".

## YÜKSƏK MƏNƏVİ KEYFİYYƏT

Paris Olimpiya Oyunları həm də idmançılarımızın nümayiş etdirdiyi yüksək fərdi keyfiyyətləri ilə yadda qaldı. Parisin ölkəmizə qarşı nümayiş etdirdiyi təxribat qaliblərimizin, mükafatçılarımızın nümunəvi davranışına heç bir təsir göstərmədi. Komanda üzvlərimiz hər zaman olduğu kimi bu dəfə də Azərbaycan adını uca tutdular.

İdmançılarımızın yalnız məharətləri ilə deyil, həm də yarış zamanı layiqli davranışları ilə seçildiklərini vurğulayan Prezident İlham Əliyev də deyib ki, bu, onların yüksək mənəvi keyfiyyətlərini bütün dünyaya nümayiş etdirdi.

Qeyd edək ki, Prezident İlham Əliyevin imzaladığı sərəncamla XXXIII Paris Yay Olimpiya Oyunlarında qazanılmış yüksək nailiyyətlərə və Azərbaycan idmanının inkişafında xidmətlərinə görə Heydərov Hidayət Minayət oğlu, Kotsoiev Zelim Oleqoviç, Məmmədov Elxan Əbülfəz oğlu, Trautmann Riçard "Şöhrət" ordeni ilə təltif ediliblər. Olimpiya komandamızın uğur qazanan digər üzvləri də təltif olunublar. Oyunlarda medal qazanan idmançılara və məşqçilərinə pul mükafatları da təyin edilib.

ÜÇ ƏSRİN QƏZETİ Kaspi



# FORPOSTUN BEŞ ADAXLISI



Ermənistanın yeni himayədar axtarışı nəticəsində tarixi proseslərin burulğanına düşməsi genetik xəyanətin məntiqi yekunudur. Paşinyan Ermənistanının Rusiyadan boşanması yarımçıq təəssürat yaradır: tərəflərdən biri ayrılmaq arzusunu bildirsə də, özünə taməsaslı yeni adaxlı tapa bilmədiyindən izdivaca son qoya bilmir.



RÜSTƏM QARAXANLI

Ermənistanın 33 il ərzində müstəqil dövlət olaraq formalaşa bilməməsi erməni xalqının köklü dövlətçilik ənənələrinin olmamasının bariz göstəricisidir. İrəvanda hakimiyyətdə kimin oturmasından asılı olmayaraq daim himayədar axtarışında olması tarixi dövlətsizlik kompleksinin nəticəsidir. Ermənistan valideynlərinin total nəzarəti altında böyüyüb boya-başa çatmış yeniyetmələrə bənzəyir. Onun müstəqil yaşaması üçün yetərincə yaşı olsa da, gözü icazə almaq üçün hər zaman böyüklərindədir...

### TƏSADÜFİ DÖVLƏT

Müasir erməni dövləti həm də həyata planlaşdırılmadan gəlmiş uşağa bənzəyir. Sirr deyil ki, bugünkü Ermənistanın "müstəqil" mövcudluğu tarixi təsadüf nəticəsində mümkün olub. Sovet imperiyası dağılmasaydı, dünya ictimaiyyətinin əzəli Azərbaycan torpaqlarında yaradılan Ermənistan dövləti barədə xəbəri olmayacaqdı. Nəinki dövlətçilik, hətta hazırkı erməni xalqının formalaşması belə süni ssenari üzrə baş verib.

Ermənilərin tarixi yaşadıqları dövlətlərin hakimiyyətlərinə, yaxud onlara qarşı qiyam qaldırdıqda kömək üçün digərlərinə yazdıqları dəstək və himayə, yalvarış məzmunlu məktublarla boldur. Bu xalq nəyə nail olubsa, xəyanət əməlləri hesabına əldə edib. İstər Osmanlı, istər Səfəvi, istərsə də Rusiya imperiyalarının boyunduruğunda yaşadıqları müddətdə.

### OĞURLUQ DÖVLƏTÇİLİK

Özlərinin etiraf etdiklərinə görə, hazırkı Ermənistan erməni xalqının son 800 ildə ilk dəfə əldə edə bildiyi müstəqil dövlətçiliyin məhsuludur. Səkkiz əsr öncə mövcud olmuş hansısa mifik, yaxud qısaömürlü sülalə quruluşuna dövlət olaraq istinad edən xalq hansı müstəqillik ənənələrindən danışa bilər? Bugünkü Ermənistanın iki əsr öncə tarixi Qafqaz Albaniyasının maddi-mənəvi institutları üzərində bərqərar olması belə himayədarsız mümkün olmayıb. Alban Apostol Kilsəsi irsinin Rusiya imperatorunun bir imzası ilə Eçmiədzindəki erməni kilsəsinə bəxş edilməsində ənənəvi məktubların və yalvarışların həlledici rolu olub.

Bu tarixi komplekslər ermənilərdə genetik olaraq xəyanətə meyilliliyə yol açıb. Bu, ümumxalq səviyyəsində bir psixoloji sindromdur ki, ermənilər daima xəyanət üçün imkan axtarışındadırlar.



## ERMƏNİLƏRİN GENETİK XƏYANƏTİNİN MƏNTİQİ YEKUNU

Bu gün Ermənistanın yeni himayədar axtarışı nəticəsində tarixi proseslərin burulğanına düşməsi həmin genetik xəyanətin məntiqi yekunudur. Paşinyan Ermənistanının Rusiyadan boşanması yarımçıq təəssürat yaradır: tərəflərdən biri ayrılmaq arzusunu bildirsə də, özünə taməsaslı yeni adaxlı tapa bilmədiyindən izdivaca son qoya bilmir. Könlünü verə biləcəyi namizəd birdən çoxdur, ancaq onların heç biri çətində himayə və müdafiə edə biləcək statusda deyillər. Etibar yarada bilmirlər. Ya niyyətləri ciddi deyil – bir az vaxt keçirib aralaşmaq istəyirlər, ya da ermənilərin xəyanətə meyilli olduqlarını bilib nikah avantürasına girməkdən çəkinirlər.

Əslində, İrəvanın Moskvanın orbitindən çıxmaq cəhdinin işartıları Nikol Paşinyandan öncə - Serj Sarkisyan dövründə büruzə verilməyə başlamışdı. ABŞ-nin dünyadakı ən böyük səfirliyinin məhz İrəvanda Serjin dövründə tikilməsi, Ermənistanın Avropa İttifaqı ilə nikahadək dərinləşmiş flirti bu cəhdlərin bariz nümunələridir.

## SARKİSYANDAN PAŞİNYANA ÖTÜRÜLƏN MİRAS

Moskvadan gələn təzyiqlərə tab gətirə bilməyən, Rusiya prezidentinin bir zəngi ilə Aİ ilə sənədlərin imzalanmasından imtina edən Sarkisyan hakimiyyəti yolu davam etdirmək üçün könüllü şəkildə Paşinyana təhvil verdi. Üstündən cəmi bir neçə ilin keçməsi Paşinyanın hakimiyyətə gəlişinin ssenariləşmiş ötürülmə əməliyyatı olduğunun müəyyən edilməsi üçün yetərlidir. Məhz buna görə bu gün Ermənistandakı revanşistlər "artsax"ın itirilməsinin əsas günahkarı olaraq Sarkisyanı görürlər. Ermənistan öz sahibini dəyişmək üçün növbəti transformasiya prosesinə qədəm qoymuş, ancaq bunu Serjlə bacarmamışdı. Layihə müəllifləri çox gözləmək niyyətində deyildilər deyə, fərasətsiz Sarkisyanı kənarlaşdırıb missiyanı davam etdirmək funksiyasını Paşinyana həvalə etdilər.

### KİMƏ ƏRƏ GETMƏLİ?

Hazırkı Ermənistan dövləti ermənilərin ümummilli səviyyədə xəyanətkar olmaları və tez-tez sahiblərini dəyişməyə meyilliliklərinin miksindən yaranmış hibrid törəmədir. Paşinyan hökuməti formalaşmış ənənədən fərqli olaraq, birini atıb digəri ilə qaçaraq xəyanət etmiş nikah tərəfi deyil. İndi İrəvan nə az, nə də çox – düz 5 məşuqla birdən flirt etməklə tarixi rekorda imza atır. Rusiya ilə izdivaca son qoymaq üçün yola çıxan Paşinyan Moskva ilə tam ayrıla bilmir. Fransa ilə flirt getdikcə əndazədən çıxır, ancaq ortada əsas amil yoxdur: cib xərcliyi. Paris bol-bol eşq vədləri versə də, əlini cibinə salmaq istəmir.

Üçüncü namizəd olan ABŞ özünü sevgilidən daha çox məkrli məşuq kimi aparır. Ermənistanın hesabına digərləri ilə haqq-hesabını çürütmək istəyir.

Növbəti adaxlı – İranla nikaha girmək risk tələb edir. İran dünyadan təcrid olunmuş dövlətdir. Sonra izdivacı pozmaq ağır nəticələrə səbəb ola bilər. O ki qaldı yeni gözaltı, yəni Hindistana... Hindlilər deyir ki, sevgi deyirsən sevək, ancaq sonra nə olacaq, bizlik deyil.

Mürəkkəb vəziyyətdir...





# PAŞİNYAN İRƏVAN MERİNİ YOLA SALMAĞA ÇALIŞIR

Ermənistanın baş naziri Nikol Paşinyan İrəvan meri Tiqran Avinyanın ətrafındakı halqanı sıxmağa başlayıb. Müxalif “Vətən uğrunda Tavuş” hərəkatının aksiyaları ilə bağlı fikir bildirməyən İrəvan meri özünü hədəfə gətirib.

**FUAD ABASOĞLU**

Ermənistanda dərinləşən siyasi böhran və “Vətən uğrunda Tavuş” hərəkatının aksiyaları ilə bağlı fikir bildirməyən İrəvan meri Tiqran Avinyanın susqunluğu hakimiyyəti ciddi şəkildə narahat edib. Hakim partiya merin dostları və qohumlarına qarşı cinayət işi açmaqla onun ətrafındakı dairəni daraltmağa çalışır.

### KOMANDA DAXİLİNDƏ KOMANDA

Bir müddət əvvəl İrəvan bələdiyyəsi tərəfindən keçirilən inzibati iclasda Avinyan Ərəbkir rayonunun rəhbəri Aram Azatyan və Kanaker-Zeytun rayonunun rəhbəri Artak Hovakimyanı tərifləyib. Bir gün sonra isə təhlükəsizlik qüvvələri Azatyanı həbs edib. Sonradan məhkəmə 30 milyon dram girov qarşılığında onu ev dustaqlığına buraxıb. Bu isə sübut edir ki, İrəvan bələdiyyəsində çalışan hakim partiyanın üzvləri komanda daxilində komanda yaradırlar. Elə bu səbəbdən də Ərəbkir rayon rəhbərinin iki müavini Qeqam Karapetyan və Davit Balasanyan da bir ay müddətinə həbs ediliblər. Onların həbsi də partiyanın konkret hərəkətə keçməsindən xəbər verir. “Vətəndaş müqaviləsi”ndə heç kəsin sərbəst fikri olmamalı və hamı Nikol Paşinyana pərəstiş etməlidir.

### AVİNYANIN MÜƏMMALI TORPAQ SATIŞI

Hadisələrin analizi göstərir ki, Paşinyanın səbir kasasının daşma səbəblərindən biri də Avinyanın keçmiş respublikaçı, millət vəkili Samvel Aleksanyanın kürəkəninə 70 milyon dram qarşılığında torpaq satması olub. Davit Davtyan “Arm Construct” şirkətinin rəhbəri Aleksanyanın qızı ilə evlidir və merin qərarı ilə şəhərin bahalı rayonlarından sayılan Komitas prospektində böyük torpaq sahəsinə sahib olub. Əslində bu məsələdə də mer müəyyən fırıldağa əl atıb. Sənədlərdən məlum olub ki, torpaq ərazi dəyərləndirməsi zamanı üçüncü zonanın bazar dəyəri qiymətinə satılıb. Əslində isə Komitas prospektində torpağın qiyməti bundan qat-qat bahadır. Bir ay əvvəl Ərəbkirdə 16 mərtəbəli bina tikməyə çalışan Davtyanın icazəsi hakim partiya tərəfindən ləğv edildiyi halda, Avinyanın ona torpaq satması merin Paşinyanın qərarlarına hörmətsizlik etməsi kimi qəbul edilib.



Tiqran Avinyan



Baqrat Qalstanyan

## TOXUNULMAZLIĞIN LƏĞVİ

Hakim partiya kuluarlarında gəzən söhbətə görə, Avinyan bir il mer postunda oturduqdan sonra Paşinyan Ağsaqqallar Şurası vasitəsilə ona etimadsızlıq prosesi təşkil edəcək. Belə ki, şuranın müxalifət fraksiyaları sentyabrda İrəvan merinə etimadsızlıqla bağlı müzakirələrə başlamağa hazırlaşırlar.

Paşinyan boşaldılacaq mer postuna Armen Pambuxçyanı namizəd kimi görür. Çünki Tiqrandan fərqli olaraq, Armen idarəolunandır və hakimiyyətin tapşırıqlarını qeyd-şərtsiz yerinə yetirir.

Ermənistan qanunlarına əsasən, bələdiyyə sədri seçilən şəxs bir il müddətinə toxunulmaz olur. Avinyan üçün toxunulmazlıq da 10 oktyabr tarixində başa çatır.

### SAXTA SORĞULAR

Yuxarıda da qeyd edildiyi kimi, Avinyanın toxunulmazlıq müddəti başa çatan kimi “Vətəndaş müqaviləsi” konkret hərəkətə keçəcək. Bunun üçün isə alt bazanı hazırlamaq tapşırığına uyğun olaraq, keçirilən sorğularda İrəvan merinin çox zəif səs toplaması, kütlə tərəfindən tənqid edilməsi, istefaya səslənməsi görüntüsü yaradılır. Məlum olub ki, paytaxt sakinləri beş ballıq şkala ilə ölçülən sorğuda merin fəaliyyətini 2.6 balla dəyərləndiriblər. Respondentlərin 32.6 faizi hesab edir ki, Avinyan dərhal istefa verməlidir. 17.3 faizi isə hesab edir ki, mer istefa versə, daha yaxşı olar.

### AVİNYAN TƏNQİD HƏDƏFİNDƏ

İrəvan merini gözdən salmaq üçün Paşinyan təkcə öz partiyadaşlarından istifadə etmir. Belə ki, keçmiş deputat Sona Aqekyan da Avinyanı tənqid edənlər sırasına qoşulub. O qeyd edib ki, İrəvan xaos içindədir. Çünki mer öz səlahiyyətlərindən düzgün istifadə edə bilmir. Aqekyan qeyd edib ki, hazırda İrəvanda qeyri-məhdud tikinti icazələri qeydə alınır, bitki örtüyü ilə örtülmüş ərazilər yoxa çıxır. Bu tip çıxışlar tək Sona Aqekyanla məhdudlaşmır. Bir sıra deputatlar, ictimai xadimlər də İrəvan merini, onun atdığı addımları tənqid edirlər.

## REVANŞİST KEŞİŞ BAQRAT QALSTANYANLA ŞÜBHƏLİ ƏLAQƏ

Nikol Paşinyanı qəzəbləndirən əsas səbəblərdən biri T.Avinyanın Baqrat Qalstanyanla əlaqəsidir. Siyasi kulislərdə gəzən söhbətlərə görə, Avinyan erməni keşişlə gizli şəkildə bir neçə dəfə qısamüddətli görüş keçirib, onu dəstəklədiyini, hakimiyyətdən bezdiyini dilə gətirib. Eyni zamanda “Vətən naminə Tavuş” hərəkatının keçirdiyi aksiyalar zamanı da Tiqranın ağzına su alıb susması, heç bir fikir bildirməməsi baş nazirin diqqətindən yayınmayıb. Payız aylarında Baqratın yenidən aktivləşəcəyini, müxtəlif aksiyalar keçirəcəyini bəyan etməsi hakim partiyanın indidən hərəkətə keçməsinə səbəb olub.

Göründüyü kimi, Paşinyan yolunda əngəl ola biləcək hər kəsi əzərək keçməyi adətə çevirib. Vaxtilə təriflədiyi, adam saydığı, meydanlardakı etiraz aksiyalarında çiyin-çiyinə dayandığı Tiqranı da yolundan kənara atmaq artıq onun hədəfidir. Avinyanın Baqratla görüşdüyü barədə yayılan xəbərlər kölgəsindən də qorxan Nikol üçün həlledici səbəb olub.

TBİLİSİ ABŞ-DƏN SEÇKİLƏR ÖNCƏSİ DAXİLİ İŞLƏRİNƏ QARIŞMAMAĞI TƏLƏB EDİR

# GÜRCÜSTAN-QƏRB QARŞIDURMASI PİK HƏDDƏ



Seçkilər yaxınlaşdıqca Qərblə Gürcüstan arasında iplər daha da gərilib. Hakim partiya təmsilçiləri Qərbi ölkənin daxili işlərinə qarışmaqda, müxalifət isə iqtidarı Rusiya ilə yaxınlaşmaqda ittiham edir.



AZƏR NURİYEV

Gürcüstanda siyasi vəziyyət gərgin olaraq qalır. Qərblə qarşıdurma pik həddə çatıb. ABŞ prezidenti Cozef Bayden başda olmaqla, bir çox ölkələrin liderləri bu ölkənin daxili işlərinə qarışmaqda davam edir. Proseslərin gedişi ona deməyə əsas verir ki, Gürcüstan növbəti geosiyasi qarşıdurma arenasına çevrilə bilər. Payızda kritik parlament seçkiləri keçiriləcək. Qərb müxtəlif strukturları vasitəsilə hər vəchlə bu ölkədə hakimiyyət dəyişikliyinə çalışır. Ölkənin ərazi bütövlüyü təmin olunmayıb. Keçmiş prezident Mixeil Saakaşvili hələ də həbsdədir. Qərbyönümlü sayılan və səlahiyyət müddətinin bitməsinə bir neçə ay qalan prezident Salome Zurabişvili onu əfv edəcəyini bəyan edib. Halbuki xanım prezident iki il əvvəl Saakaşvilini "heç vaxt əfv etməyəcəyini" bildirmişdi. Odur ki, keçmiş prezidentin azadlığa buraxılması məsələsinə münasibət fərqlidir.

### MÜNASİBƏTLƏRİ KORLAYAN QANUN

Ən ciddi, mühüm mübahisə mövzularından biri də parlamentin "Xarici təsirin şəffaflığı haqqında" qanunu qəbul etməsidir. Bu addım ABŞ başda olmaqla, Qərblə Gürcüstan arasında münasibətləri daha da gərginləşdirib. Birləşmiş Ştatlar Gürcüstan üçün nəzərdə tutulan 95 milyon dollardan artıq maliyyə yardımını dayandırıb, vəsaitin qeyri-hökumət təşkilatlarına veriləcəyi bildirilir. Dövlət katibi Antoni Blinken hətta rəsmi Tbilisini "antidemokratik fəaliyyət göstərməkdə və yalan açıqlamalar verməkdə" ittiham edib.

Məsələ ondadır ki, Gürcüstan bu qanunu qəbul etməklə, təkcə öz ərazisində xarici təsirləri azaltmır. Həm də ərazisindən ötürülərək ümumilkdə Cənubi Qafqaza yönəlik "qrantları" nəzarətə götürür. Sirr deyil ki, Gürcüstan uzun illər ərzində bu sahədə plasdarm rolunu icra edib. "Qrant" adı altında Qərb mərkəzlərindən bölgəyə gətirilən qanunsuz vəsaitlər Gürcüstanda yerləşdirilib, buradan paylaşdırılıb.

### HAKİM PARTİYA QƏRBİ İTTİHAM EDİR

Belə bir durumda Gürcüstan hakimiyyəti növbəti dəfə Qərb nümayəndələrini parlament seçkilərinə müdaxilədə ittiham edib. "Gürcü Arzusu" liderlərinin fikrincə, müxalifətin demokratik mübarizədə qalib gəlmək şansı yoxdur, ona görə də səsvermədən sonra iğtişaşlara başlamağı planlaşdırır. ABŞ bu ssenaridə iştirakını inkar etsə də, Tbilisi sakitləşmir. "Konkret siyasi partiyaların seçki kampaniyaları birbaşa xaricdən maliyyələşdirilir ki, bu da qətiyyən qəbuledilməzdir, ağlasığmazdır. Buna mütləq cavab verilməli və bizim nə ilə məşğul olduğumuz aydınlaşdırılmalıdır", - "Gürcü Arzusu"nun baş katibi Kaxa Kaladze deyib. Kaladze hətta siyasi rəqiblərinin qalib gələ biləcəyi fikrini yaxın belə buraxmır. Partiyanın icraçı katibi Mamuka Mdinaradze xarici dövlətləri Gürcüstanın daxili işlərinə maliyyə müdaxiləsini dayandırmağa çağırıb. "Biz xarici dost ölkələr və onların nümayəndələrini Gürcüstanın daxili işlərinə maliyyə müdaxiləsini dayandırmağa çağırırıq. Onların özləri də bilirlər ki, bu, ölkədə hansı təlatümlərə səbəb ola bilər", - o bildirib.

## GÜRCÜ XALQINA MÜHARİBƏ VƏDİ

Müxalifətin çevriliş hazırlamaq və ölkənin müharibəyə qoşulması iddiaları "Gürcü Arzusu"nun seçki kampaniyasının əsas elementlərinə çevrilib. Parlamentin spikeri Şalva Papuaşvili hesab edir ki, müxalifətə Ukraynaya könüllülər göndərməsi və Rusiyaya qarşı iqtisadi sanksiyalar tətbiq etməsi üçün bir həftə kifayətdir. "Gürcüstan müharibəyə cəlb olunacaq. Onlar gürcü xalqına müharibə vəd edirlər", - Papuaşvili əmin edib.

### MÜXALİF DEPUTATLARIN SAYI AZALACAQ?

Paralel olaraq hakimiyyət ictimaiyyəti müxalifətin parlamentdəki iştirak səviyyəsinin azalacağına hazırlayır. Parlament çoxluğunun lideri Mamuka Mdinaradze eks-prezident Mixail Saakaşvilinin "Vahid Milli Hərəkatı"ndan başqa heç kimin beş faizlik baryeri keçə biləcəyinə qətiyyən inanmır. "Gürcü Arzusu"nun keçmiş üzvlərindən toplanmış "Xalq hakimiyyəti" partiyasının icraçı katibi Quram Maçaraşvili hesab edir ki, parlamentdə indiki 55 müxalifətçinin əvəzinə maksimum 30-40 nəfər qalacaq.

### HƏDƏFDƏ İVANİŞVİLİDİR

Müxalifət isə əks arqumentlər irəli sürür. Bəziləri bu qənaətdədir ki, hakimiyyət antiqərb addımları və hərəkətləri ilə Gürcüstanın beynəlxalq mövqelərini ciddi şəkildə təhlükə altına qoyur. Bütün bunların arxasında Gürcüstanın "boz kardinal"ı hesab edilən Bidzina İvanişvili durur. O, hər vəchlə ölkəni Rusiyanın himayəsinə qaytarmağa çalışır. İvanişvilinin rəqibləri bu günlərdə onun ünvanına sərt ittihamlar səsləndiriblər. Bidzina İvanişvilinin əleyhdarları oliqarxın Rusiya ilə şəxsi əlaqələrini gücləndirdiyinə dair araşdırma dərc ediblər. Bildirilib ki, "Gürcü Arzusu"nun təsisçisinin Rusiyada ümumi dəyəri 14,7 milyon dollar olan mənzil və torpaq sahələri var, xüsusən də onun ailəsinin Moskvada və Moskva vilayətinin Odintsovo rayonunda iki evi var.

İvanişvilinin tərəfdarları isə müxalifətin yalan danışdığını iddia edirlər. Onların qənaətincə, hər şey doğru olsa belə, burada qanunsuz heç nə yoxdur. Tbilisi meri və "Gürcü Arzusu"nun baş katibi Kaxa Kaladze bildirib ki, İvanişvilinin son 20-25 ildə ümumiyyətlə Rusiya ilə heç bir əlaqəsi olmayıb. "Onun Rusiyanı tərk edib Gürcüstana gəldiyi ili dəqiq xatırlamıram", - Kaladze deyib. Onun fikrincə, müxalifət parlament seçkiləri öncəsi hakim partiyanın nüfuzunu sarsıtmaq üçün qəsdən dezinformasiya yayıb.

Göründüyü kimi, qarşılıqlı ittihamlar və bəyanatlar zaman keçdikcə artır. Gürcüstanı qarşıda gərgin və maraqlı hadisələr gözləyir. Seçkilər yaxınlaşdıqca da, proses daha rəngarəng hal alacaq.


Kaxa Kaladze
Mamuka Mdinaradze
Quram Maçaraşvili

# QİYMƏTİN TƏZƏSİ, MAŞININ KÖHNƏSİ

Taksilərlə bağlı şikayətlər səngimir. Sərnişinlər baha gələn köhnə taksidən, daha doğrusu, "əvəzedici taksilər"dən şikayətçidirlər. Bu məsələ ilə bağlı ekspertlər və rəsmi qurum arasında fikir ayrılığı var.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az



Ölkədə taksilərin fəaliyyətini tənzimləmək üçün həyata keçirilən dəyişikliklər nəzəriyyədə ideal görünsə də, təcrübədə hələ özünü doğrultmayıb. Qaydalar qüvvəyə minəndən sonra hər gün sosial şəbəkələrdə şikayətlərlə rastlaşırıq. Məsələn, şikayətlərdən biri belədir: "Niyə əvvəl dörd manata getdiyim yola indi 8-9 manat ödəyirəm, amma yenə də köhnə taksi gəlir? Qeydiyyatdan keçən, standartlara cavab verən taksilər haradadır? Taksi sifariş verərkən mobil tətbiqdə standartlara cavab verən maşın göstərilir, köhnə "Prius" gəlir".

Yəni sürücülər tələblərə cavab verən maşınla qeydiyyatdan keçir, fəaliyyətini yenə də köhnə, yararsız maşınla davam etdirirlər.

Tək sərnişinlər deyil, sürücülərin də narazı olduğu məqamlar var. Onların iddialarına görə, istismar edilirlər və hələ də vahid qiymət standartı yoxdur. Yəni şirkətlər öz taksiləri üçün daha baha qiymət yazır, xidmətə kənardan qoşulanlar isə köhnə və ucuz qiymətlə fəaliyyət göstərirlər.

Bəs bu cür halların qarşısı necə alınmalıdır? Ümumiyyətlə, belə hallarla qarşılaşan sərnişin və ya sürücü nə etməlidir?

### KEYFİYYƏTLİ VƏ BAHA, YOXSA KÖHNƏ, UCUZ TAKSİ?

Nəqliyyat eksperti Eldəniz Cəfərov "Kaspi" qəzetinə açıqlamasında bildirir ki, bütün narazılıqların kökündə taksi qıtlığı dayanır. Üstəlik, belə bir dilemma ilə qarşı-


Eldəniz Cəfərov

qarşıyayıq: keyfiyyətli və baha, yoxsa köhnə və ucuz taksi?

"Məlum qərardan sonra taksi sayı 50 faiz azaldılıb və paytaxtda taksi qıtlığı yaranıb. Təbii ki, qıtlıq yarananda qiymətlər yüksəlir. Vətəndaşların bir qismi keyfiyyətli, təhlükəsiz və baha taksini seçirlərsə, böyük bir qismi ucuz taksiyə üstünlük verir. Bu da normaldır, çünki insanlar ilk növbədə iqtisadi vəziyyətini, cibini düşünür", - ekspert deyib. Onun sözlərinə görə, insan üçün bir nöqtədən digər nöqtəyə vaxtında çatmaq vacibdir. Nəinki taksi sifariş verib, taksi qıtlığı səbəbindən işə gecikmək: "Çünki bu, onun iqtisadi vəziyyətinə daha çox ziyan vurur, nəinki taksiyə ödədiyi pul. Belə vəziyyətdə əgər sərnişin taksi sifariş edibsə, tətbiqdə yazılanın əvəzinə başqa model maşın gəlirsə, bu, faciə deyil. Çünki biz onu da yığışdırsaq, vətəndaş hazırda taksidən istifadə edərkən verdiyi xidmət haqqının üç qat artığını verməli olacaq. Hələ sərnişinlər buna hazır deyillər".

## TAKSİ SÜRÜCÜLƏRİNƏ MÖHLƏT VERİLMƏLİDİR?

Mütəxəssis bildirir ki, taksi sürücülərinə möhlət verilməlidir: "Ümumiyyətlə, yeni qaydalardan sonra taksi fəaliyyəti ilə məşğul olan vətəndaşların əksəriyyəti avtomobillərini yeniləyə, tələbləri yerinə yetirə bilmirlər. Hazırda tələb həddindən artıq çoxdur. Ona görə taksi sürücülərinə avtomobillərini yeniləmələri üçün möhlət verilməlidir".

### ŞİRKƏTLƏRİN SÜRÜCÜNÜN HÜQUQUNU POZMAĞA HAQQI YOXDUR

Taksi şirkətlərinin hər sürücü ilə fərqli qaydada işləməsinə gəldikdə, mütəxəssis vurğulayır ki, şirkətlər belə fəaliyyət göstərə bilərlər: "Hər bir taksi şirkətinin müəyyən iş prinsipləri olur. Bu, artıq taksi sürücüsü ilə şirkət arasındakı məsələdir. Taksidə ümumiyyətlə vahid qiymət olmamalı, tariflər sərbəst olmalı, qiymətlər tələbə əsasən formalaşmalıdır. Əsas şərt odur ki, qiymətlər hamı üçün əlçatan olmalı, sərnişin də, taksi sürücüsü də razı qalmalıdır. Təbii olaraq, taksi şirkətinin sürücünün hüququnu pozmağa haqqı yoxdur. Əgər bu baş verərsə, sürücülər müvafiq qurumlara müraciət edə bilərlər. Mən hələ müşahidə etməmişəm ki, bu günə qədər hansısa taksi sürücüsü taksi şirkəti ilə bağlı narazılığını real qaydada dövlət qurumuna bildirsin".



### HÜQUQLARI POZULAN SÜRÜCÜ VƏ SƏRNİŞİN NƏ ETMƏLİDİR?

E.Cəfərov vurğulayır ki, Azərbaycan qanunvericiliyində həm sərnişinin, həm də sürücünün hüquqları qorunur: "Əgər taksidə istehlakçı kimi sərnişinin hüququ pozulursa Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə, sürücü və ya sərnişin hər hansı nalayiq hərəkətlərə məruz qalıbsa Daxili İşlər Nazirliyinin 102 qaynar xəttinə, sürücüyə çatacaq vəsaiti şirkət vermirsə, sürücülər Dövlət Vergi Xidmətinə, sürücülərin əməyi istismar olunursa Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə müraciət edə bilərlər".

## TƏLƏBLƏRİ POZAN SÜRÜCÜLƏRİN İCAZƏLƏRİ LƏĞV EDİLİR...

Azərbaycan Yerüstü Nəqliyyat Agentliyindən (AYNA) bildirildi ki, hazırda sifariş edilən və ünvana gələn taksilərin fərqli olması ilə bağlı Agentlik tərəfindən taksi sifarişi operatorları ilə görüşlər keçirilib. Onlara bu kimi halların qarşısını almaq üçün proqram təminatının verdiyi üstünlüklərdən istifadə edərək preventiv tədbirlərin görülməsi tapşırılıb. AYNA bildirir ki, bu məsələ onların nəzarətindədir: "Sərnişinlərdən taksi sahəsində qarşılaşdıqları müxtəlif problemlərlə bağlı AYNA-nın "141" Çağrı Mərkəzi və ya sosial şəbəkə hesabları üzərindən müraciət etmələri və nəqliyyat vasitəsinin dövlət qeydiyyat nişanı barədə məlumat verməleri xahiş olunur. Taksi nəqliyyat vasitəsilə daşımalarda xidmət keyfiyyəti ilə bağlı sərnişinlərdən daxil olan müraciətlər AYNA tərəfindən araşdırılır və neqativ halların qarşısının alınması üçün tədbirlər görülür. Qanunvericiliyin tələblərini yerinə yetirməyən sürücülərin icazələri ləğv edilir. Bu günə qədər vətəndaşlardan daxil olan müraciətlər əsasında 70 taksi minik avtomobili daşımalardan kənarlaşdırılıb".

UĞUR Kaspi 17 AVQUST ŞƏNBƏ 2024 9

“KASPİ”NİN BUDƏFƏKİ QONAĞI OKSFORDDA ONKOLOGİYA ÜZRƏ TƏHSİL ALAN İLK AZƏRBAYCANLI TƏLƏBƏDİR

# “ƏSAS MƏQSƏDİM AZƏRBAYCANA NOBEL MÜKAFATINI GƏTİRMƏKDİR”



**Gülnar Abdullayeva:** “Müəyyən bir məqsədə doğru gedəndə həmişə maneələr olur və bu, normaldır. Amma bu problemləri sırf təcrübə kimi qəbul edəndə, onların öhdəsindən asanlıqla gəlirsən. Səbir və əzmkarlıq əsas şərtlərdəndir. Laboratoriya şəraitində hər təcrübə istədiyimiz nəticəni vermir. Amma təcrübə mühitinin özəlliyi də budur”.


SÖHBƏTLƏŞDİ



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az


1995-ci ildə Bakıda anadan olub. 2012-ci ildə orta məktəbi əla qiymətlərlə bitirdikdən sonra Bakı Dövlət Universitetinin biologiya fakültəsinə daxil olub. Universitetdə təhsil aldığı müddətdə yüksək təhsil göstəriciləri, həmçinin ictimai fəallığına görə 2013-2015-ci illərdə “İlin ən yaxşı tələbəsi” adına layiq görülüb, fəxri fərmanla təltif edilib. 2016-cı ildə Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun molekulyar biologiya ixtisası üzrə magistratura pilləsinə qəbul olub. Elmi fəaliyyətdə fərqləndiyinə görə Azərbaycan Milli Elmlər Akademiyasının Fəxri fərmanı ilə təltif olunub. 2018-2019-cu illərdə İslam İnkişaf Bankının PHD doktorantura təhsili üzrə təqaüd proqramının qalibi seçilib. Müsahibimiz İngiltərənin Oksford universitetində Onkologiya ixtisası üzrə təhsil alan yeganə azərbaycanlı tələbə Gülnar Abdullayevadır. O, doktorantura təhsilini bu il bitirib.

Müsahibimizin uğurları bununla da bitmir. 2019-cu ildə gənc bioloqların qış məktəbində birinci yeri tutub. Eyni zamanda, “FameLab” beynəlxalq elm müsabiqəsində Oksford Region finalçısı seçilib. HelloBio “Science Snapshots” adlı yarışmada mikroskop altında çəkdiyi şəklə görə birinci yerə layiq görülüb. 2023-cü ildə mühüm elmi nəticələr əldə etdiyinə görə Azərbaycan Milli Elmlər Akademiyası tərəfindən “ilin gənc alimi” diplomu ilə təltif olunub. Bununla yanaşı, Oksford Universitetinin iki il müddətində St Cross Kollecində Tələbə Nümayəndələr Komitəsinin vitse-prezidenti vəzifəsində çalışıb. İngiltərədə Azərbaycan Qadınlar Assosiasiyasının üzvüdür. 2024-cü ildə elm sahəsində xüsusi fərqləndiyinə görə gənclər üçün Prezident mükafatına layiq görülüb.

### “UĞURLARIMDA AİLƏMİN VƏ MÜƏLLİMLƏRİMİN ROLU BÖYÜKDÜR”

● **Gülnar xanım, elmə olan marağınız haradan qaynaqlanır?**

● Elmə olan marağım ailəmdən gəlir. Ailəmlə daima mütaliə etmişik, mənə maraqlı nağıllar, kiçik hekayələr danışıblar. Məktəb mühitində də müəllimlərimin verdiyi təlim-tərbiyə elmə olan marağımı daha da artırıb. Düşünürəm ki, həm mühit, həm də ailə bu prosesdə xüsusi rol oynayır. Məktəbdə texniki fənlərə çox böyük marağım olmasına baxmayaraq, humanitar fənləri və xarici dilləri də yaxşı oxuyurdum. Hətta müəllimlərim məni həvəsləndirirdilər ki, humanitar sahəyə yönəlim. Amma sonda qərar verdim ki, texniki sahəni seçməliyəm.

*“Hər uğursuzluqda təcrübənin müxtəlif variantlarının verdiyi nəticələrlə tanış olursan. Əgər təcrübə ilk dəfədən alınsa, bu zaman hər kəs hər şeyi asanlıqla kəşf edər.”*

### “AZƏRBAYCANDAKI TƏHSİLİM SAYƏSİNDƏ OKSFORDDA ALİMƏM”

● **Bəzən təhsil sistemimizin geri qaldığını deyirlər, necə düşünürsünüz, sizcə haqlıdırlar?**

● Elə düşünmürəm. Çünki bakalavr və magistr təhsilim zamanı qazandığım bilik və bacarıqlar həyatımda çox böyük rol oynayır. Bakı Dövlət Universitetində bakalavr təhsilim zamanı məndə Molekulyar Biologiya ixtisasına qarşı xüsusi maraq akademik İradə Hüseynovanın bizə tədris etdiyi mühazirələr və təşkil etdiyi seminarlar sayəsində yarandı. Bununla, mən magistratura pilləsində Molekulyar Biologiya istiqamətini seçməyi qərar verdim. Təhsil müddətində əldə etdiyim biliklər, məlumatlar sayəsində imtahanlardan, müsahibələrdən uğurla keçərək dünyanın müxtəlif nüfuzlu universitetlərinə qəbul əldə etdim. Azərbaycanda aldığım bilik bazasının, elm bünövrəsinin möhkəm olmasının nəticəsində Oksford universitetində doktorantura təhsilimi müvəffəqiyyətlə tamamladım. Azərbaycanda təhsil sistemi çox yüksəkdir.

● **Tədqiqatçı alim olaraq ilkin tədqiqatlarınızın mövzusu nə olub?**

● İlkin tədqiqatlara Bakı Dövlət Universitetində bakalavr təhsili zamanı başlamışam. Mütəmadi tədqiqat işlərim magistratura pilləsində Elm və Təhsil Nazirliyinin Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun müasir avadanlıqlarla təchiz olunmuş laboratoriyalarında həyata keçirilib. Mənim magistr dissertasiya mövzum Azərbaycanın buğda genotiplərindən DREB transkripsiya faktoru geninin ayrılması və xarakterizə olunmasına həsr olunub. Magistratura tədqiqat işimdə əldə etdiyim nəticələr müxtəlif nüfuzlu elmi jurnallarda nəşr olunub.

### “BU, MƏNİM ÜÇÜN ÇOX QÜRURVERİCİ BİR HALDIR”

● **Doktorantura pilləsində onkologiya ixtisasını seçməyinizin xüsusi səbəbi varmı?**

● Magistratura pilləsində təhsil aldığım zaman insan xəstəliklərinin molekulyar və genetik əsaslarının öyrənilməsinə çox böyük maraq göstərirdim. Magistraturanı bitirdikdən sonra qarşıma məqsəd qoydum ki, bu sahə üzrə təkmilləşə-cəyəm və qazandığım bilik-bacarıqları azərbaycanlı tələbələrlə paylaşacağam. Əsas maraq sahəm xərçəng xəstəliyinin inkişafına səbəb olan tənzimləyici yolların molekulyar mexanizmlərinin öyrənilməsi istiqamətində idi. Bu sahədə bir çox alimlərin elmi fəaliyyətləri ilə maraqlanmağa başladım. Professor Volter Bodmerin tədqiqat işləri ilə yaxından tanış olduqdan sonra qərara gəldim ki, məhz bu laboratoriyada fəaliyyətimi davam etdirmək istəyirəm. Test müsahibələrindən və mərhələli intervyulardan keçərək professor Volter Bodmerin rəhbərlik etdiyi “Xərçəng və İmmunogenetika” laboratoriyasında doktoranturada pilləsində təhsil almaq və tədqiqat işi aparmaq imkanı qazandım. Bu, mənim üçün çox qürurverici bir haldır.



● **Volter Bodmerin laboratoriyasında tədqiqatlar aparmaq, xərçəng xəstəliyini araşdırmaq sizə hansı bilikləri qatdı?**

● Oksford universitetində elmi rəhbərim professor Volter Bodmer onkologiya sahəsində nəinki İngiltərədə, bütün dünyada tanınmış alimdir. Onun rəhbərlik etdiyi laboratoriya iki əsas istiqamətdə fəaliyyət göstərir. Birincisi yoğun bağırsaq xərçənginin molekulyar və genetik əsaslarının öyrənilməsi, ikinci istiqamət isə yoğun bağırsaq xərçənginin müalicəsində immunoterapiya üsullarının tədqiqidir. Doktorantura mövzum yoğun bağırsaq xərçəngində hüceyrə differensiasiyasının molekulyar əsaslarının öyrənilməsinə həsr olunub. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, yoğun bağırsaq xərçəngi dünyada ən çox yayılan üçüncü xərçəng tipidir və dünyada xərçənglə əlaqəli ölümlərin ikinci aparıcı səbəbi kimi yer alır. Doktorantura təhsilim zamanı xərçəng xəstəliyinin öyrənilməsində və müalicəsində tətbiq edilən ən müasir metodlara yiyələnərək tədqiqatlar aparmışam və mühüm nəticələr əldə etmişəm.

### “HƏR TƏCRÜBƏ İSTƏDİYİMİZ NƏTİCƏNİ VERMİR”

● **Tədqiqatlar sayəsində əldə etdiyiniz kəşflərdən, uğurlardan bəhs etdiniz. Bəs bu sahədə heç uğursuzluqlar olmur?**

● Müəyyən bir məqsədə doğru gedəndə həmişə maneələr olur və bu, normaldır. Amma bu problemləri sırf təcrübə kimi qəbul edəndə, onların öhdəsindən asanlıqla gəlirsən. Səbir və əzmkarlıq əsas şərtlərdəndir. Laboratoriya şəraitində hər təcrübə istədiyimiz nəticəni vermir. Amma təcrübə mühitinin özəlliyi də budur. Hər uğursuzluqda təcrübənin müxtəlif variantlarının verdiyi nəticələrlə tanış olursan. Əgər təcrübə ilk dəfədən alınsa, bu zaman hər kəs hər şeyi asanlıqla kəşf edər. Elmin sirləri də hər kəsə açıq olar. Məsələn, doktoranturada oxuduğum müddətdə bir eksperimentin aylarla təslim olmadan müxtəlif variantlarını sınayaraq sonda çox uğurlu nəticəyə gəlib çatdım. Yoxladığım təcrübə variantlarını digər laboratoriya əməkdaşlarım ilə də paylaşaraq, eksperimental işin sürətlənməsinə vəsilə oldum.

● **Dayanmadan öyrənmək, təcrübələr aparmaq sizi yormur?**

● İnformasiya çoxluğu bəzən insanda stress yarada bilir. Amma onlar müəyyən müddətlik çətinliklərdir ki, səni məqsədinə daha da yaxınlaşdırır. Həmişə öyrəndiyim biliklər mənə az kimi görünür. Öyrənmə aclığı həmişə mənimlədir. Yaş artdıqca, böyüdükcə, o da böyüyür. Çünki öyrəndikcə başqa suallar yaranır. Hər yeni məlumatda “niyə”lər daha da artır.

● **Elm sahəsində təhsilini davam etdirmək istəyən xanım tədqiqatçı olaraq hansı çətinliklər yaşadınız?**

● Əsas çətinliyim maliyyə ilə bağlı idi. Çünki xaricdə təhsil çox yüksək məbləğ tələb edir. Həm təhsilhaqqı, həm tədqiqat ödənişi, viza prosesi çox bahadır. İstər Azərbaycanda, istərsə də Oksford Universitetində təhsil aldığım müddətdə mənə həm maddi, həm də mənəvi dəstək olan hər kəsə öz dərin minnətdarlığımı bildirirəm. Ailəm elmə olan marağımı daima yüksək qiymət-ləndirib və mənə həmişə dəstək olub. Bu, mənim həyatımda çox mühüm amildir. Xaricdə təhsil almaq, orada sərbəst yaşamaq, mühitə adaptasiya həm ailəmdən, həm də müəllimlərimdən gələn dəstək sayəsində mümkün oldu. Bu dəstək sayəsində mən uğurlarımı davam etdirirəm.





### “QADINLARIN HƏYATIMIZIN HƏR SAHƏSİNDƏ BÖYÜK ROLU VAR”

● **İngiltərədə Azərbaycan Qadınlar Assosiasiyasının üzvüsünüz. Qadınların cəmiyyətdəki rolunu necə görürsünüz?**

● Qadınların həyatımızın hər sahəsində böyük rolu var. Bu assosiasiyaya qatılmaqda əsas məqsədim Azərbaycan qadınlarının həyatımızın müxtəlif sahələrində uğurlu fəaliyyətləri ilə tanış olmaq və öz təcrübələrimi də onlarla paylaşmaq idi. Elm sahəsində qadınların böyük xidmətlərinə aid çoxsaylı nümunələr gətirmək olar. İki dəfə Nobel mükafatına layiq görülmüş Meri Küri mənim ilham aldığım qadınlardandır. Düşünürəm ki, qadınlara potensial-larının üzə çıxması və istədikləri məqsədlərə doğru çatmaqda həm ailə üzvləri, həm də cəmiyyət daima dəstək olmalıdır.

### HƏM TƏDQİQATÇI, HƏM MÜƏLLİM

● **Elm sahəsi ilə yanaşı, həmçinin könüllü sahədə də fəalsınız...**

● Könüllülük fəaliyyətim zamanı qazandığım təcrübələrin mənim həyatımda xüsusi rolu var. 2022-ci ildən Oksford Keen təşkilatında könüllü olaraq fəaliyyət göstərirəm. Qurumun əsas məqsədi xüsusi məhdudiyyətli insanların cəmiyyətə adaptasiyası ilə bağlıdır. Bu təşkilatda aktiv fəaliyyətimə görə medal və sertifikatla təltif olunmuşam. Eyni zamanda, Oksford Universitetində tələbə elmi cəmiyyətinin vitse-prezidenti kimi fəaliyyətim mənə müxtəlif ixtisaslarda təhsil alan tələbələrlə birbaşa ünsiyyət qurmaqda və onlara Azərbaycanın tarixi həqiqətləri, mədəniyyəti, milli adət-ənənələri, və bayramları haqqında məlumat verməyimdə çox mühüm rol oynadı.

● **Gələcəkdə elmi təcrübənizi necə daha da paylaşmağı düşünürsünüz?**

● 2024-cü ildə elm sahəsində xüsusi fərqləndiyimə görə gənclər üçün prezident mükafatına layiq görüldükdə çox böyük qürur və sevinc hissi keçirdim. Gələcək hədəflərim sırasında həm Azərbaycan universitetlərində, həm də Oksford Universitetində tədris və elmi-tədqiqat sahəsində fəaliyyət göstərmək istəyirəm. Əsas məqsədim elm sahəsində Azərbaycana Nobel mükafatını gətirmək, cəmiyyətə töhfə vermək və ölkəmizin adını daha da yüksəklərə qaldırmaqdır.

# MÜƏLLİMLƏRİN ƏN YARALI YERİ

Metodika imtahanı bir növ müəllimlərin başağrısına çevrilib. Sertifikasiya zamanı ixtisasdan yüksək bal toplayan müəllimlər metodika imtahanından zəif nəticələr göstərirlər.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Təhsilalanların sertifikasiyası zamanı ixtisasdan yüksək bal toplayan müəllimlərin metodika imtahanından zəif nəticələrinin olması faktları var. Fənlər üzrə ixtisasdan 50 bal toplayan əksər müəllimlər metodikadan 10 balı tam toplaya bilməyiblər. Metodika imtahanı bir növ müəllimlərin başağrısına çevrilib. Hərçənd müəllimlər imtahandan öncə dərsin planlaşdırılması, sinfin idarə edilməsi, diferensial yanaşma, oxuyub-anlama bacarığının formalaşdırılması, sinifdə sağlam sosial-psixoloji və mənəvi-psixoloji mühitin yaradılması ilə əlaqədar mövzuların daxil olduğu təlim proqramına cəlb olunublar. Bəs ixtisasını əla bilən müəllimin metodikadan axsamasına səbəb nədir? Problemə ekspertlərin gözü ilə nəzər salanda incə mətləblər ortaya çıxır.



Günay Əkbərova

Foto: Rüfət Mikayılov /Global Media Group

### PROBLEM ŞABLON CÜMLƏLƏRDƏ VƏ TERMİNOLOGİYADADIR

Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın katibi Günay Əkbərovanın sözlərinə görə, sertifikasiya istiqamətində metodistlər yetişdirilir. Belə ki, onlar məktəblərdə digər müəllimlərin dərslərində iştirak edir, mentorluq köməkləri göstərirlər: "El dilində sadələşdirsək, metodika kurikulumdur. Bölgələri gəzəndə də müşahidə edirik ki, müəllimlərin ən yaralı yeri kurikulumdur. Problem oada şablon cümlələr və terminologiyanın olması ilə bağlıdır. Bu, müəllimlərə bir az çətinlik yaradır. Bizdə metodika ilə bağlı kitabların tərcüməsini dünya qaynaqlarına istinad edərək yazıblar. Tutaq ki, "servis learning"dirsə tərcüməsini "xidməti öyrənmə" kimi qeyd ediblər. Bəs bunun izahı nədir? Bu, nəyə xidmət edir? Müəllim bunu bilsə, onu başa düşərək yazacaq. Müəllim ixtisası bilir. İxtisasını mənimsəyən müəllim metodikanı mənimsəyəndə çətinlik çəkə bilməz. Demək, bu məsələdə haradasa boşluq var".



Foto: Tapdıq Abdullayev - /Global Media Group

## TƏCRÜBƏ ƏSASLI TƏLİMLƏRƏ EHTİYAC VAR

G.Əkbərova hesab edir ki, tez və yaxşı nəticə əldə etməyin ən yaxşı yolu təcrübə əsaslı təlimlərdir: "Ümid edirəm ki, yeni metodistlərimiz bu məqamlara daha çox diqqət ayıracaqlar. Fikrimcə, növbəti mərhələdə bununla bağlı daha çox iş görüləcək".

G.Əkbərova hesab edir ki, metodika ilə bağlı problemlər məhz təcrübənin az olmasından qaynaqlanır: "Məsələn, mən imtahan verəndə səhvlərimdən biri - "qartopu üsulu" idi. Bu, mənə izah olunmayıb. Bununla bağlı dərslər təşkilatlara göndərilsəydi və ya saytlara yerləşdirisəydi, biz bu üsulu öyrənərdik. Yəni boşluqları bu formada müəyyən edib doldurmaq olar".

### MÜƏLLİMLƏRƏ DƏSTƏK ÜÇÜN YOLLAR TAPMAQ LAZIMDIR

ADPU-nun Məktəbəqədər təhsilin pedaqogikası kafedrasının baş müəllimi Xalidə Həmidova prosesi belə izah edir: "Artıq 2009-cu ildən kurikulumlar yenilənməyə başlayıb. Hətta ondan əvvəl fəal təlim və yeni metodikalar ortaya gəlib. Ənənəvi təlim prosesindən təcrübə əsaslı təlim prosesinə keçdik və bunun içərisində bir çox fərqli metodikalar işlənməyə başladı, yeni təkliflər ortaya çıxdı. Müəllimlər də fərqli metodikalara üz tutmağa başladılar. Sürətlə dəyişən dünyanın tələblərinə uyğun yeni formatlar ortaya gəldi. Müəllimlərin də bir növ beyinləri qarışdı, çaşqınlıq yarandı. Onlar həddindən artıq yüklənməyə başladılar". X.Həmidova müəllimlərin metodikadan tələb olunan balı tam ödəyə bilməmələrinin səbəbini əksəriyyətin ənənəvi metodika üzrə vərdişlərə yiyələnməsi ilə əlaqələndirir: "İnsanlar dörd il ixtisaslarının dərinliklərini öyrənirlər. Bu, onların biliyə yönələn kompetensiyalarıdır. Nəzəri məsələlər dərinləşdirilmiş şəkildə bütün müəllimlərimizdə formalaşdırılıb. Hələ də müəllimlərimizin çoxu köhnə dövrdə təhsil almış insanlardır. Biz bu müəllimləri çox da qınaya bilmərik, çünki əksəriyyəti ənənəvi metodika üzrə vərdişlərə yiyələniblər. Nə qədər yeni metodikanın nəzəriyyəsini oxusalar da, təcrübi-praktik tədrislə bağlı çətinliklər ortaya çıxır. İmtahanda daha çox praktik, nəticəyə əsaslanan suallar olduğu üçün müəllimlər cavablandırmaqda çətinlik çəkirlər".



Ekspert hesab edir ki, müəllimlər yeni tədris mühitinə uyğunlaşdıqdan, yeni nəzəriyyələri praktikaya tətbiq etməyə başladıqdan sonra nəticələr daha yüksək ola bilər: "Bu vəziyyətdə müəllimlərə dəstək ola biləcək yollar tapmaq lazımdır. Ortalama ballara baxdıqda görə bilərik ki, müəllimlər metodikadan az bal toplayıblar. Bu, onların sinifdə olan davranışlarından, səriştələrindən xəbər verir. Mənə görə, metodika suallar və testlə ortaya qoyulacaq bir həll deyil, daha çox praktik nümayiş olunmalıdır. Ona görə bəzən yanıla bilərik. Məsələn, müəllim imtahan zamanı suala cavab verməyə bilər, amma onun siniflərinə daxil olsaq çox gözəl metodiki bacarıqlarının və yaxşı nəticələrinin olduğunu görə bilərik".

## "HANSISA BİR QURUM ONLARA "STOP" DEMƏLİDİR"



Xalidə Həmidova

X.Həmidova prosesdə yaxşı nəticənin əldə olunması üçün təlimçilərin peşəkar olmasını da ən vacib şərtlərdən biri hesab edir. Yəni metodikadan imtahana hazırlıq müddətində müəllimlər təlimlərə cəlb olunur. Bəs təlimçilər mentorlardırmı? X.Həmidova sualın cavabına tərəddüdlə yanaşır: "Bəzən burada da yanılmalar olur. Əvvəllər ixtisasartırma məcburi formada idi. İndi artıq təlimçilər regionlara - müəllimlərin yanına gedirlər. Bəs bu təlimçilərin seçimi nə qədər doğru aparılır? Onlar həqiqətən mütəxəssisdirlərmi? Onların seçimi necə baş verir? Hansı keyfiyyətlərə görə təlimçi seçilirlər? Bu sualların cavabı bir qədər çətindir. Məsələn, hazırda məktəbəqədər ixtisasa hazırlaşdıran kifayət qədər müəllim var. Adamları araşdıranda görürsən ki, kimya, coğrafiya və ya tarix müəllimidir. Əgər adamın məktəbəqədərdə bir gün belə təcrübəsi yoxdursa, yalnız kitablardan məktəbəqədəri öyrənibsə, o, ortaya nə qədər güclü metodika qoya bilər? Bu cür mənfi hallar var. Yəqin hansısa bir qurum onlara "stop" deməlidir".

İŞ ÜÇÜN MƏSLƏHƏTLİ ÖLKƏLƏR POLŞA, ÇEXİYA, LATVİYA, LİTVA VƏ SLOVAKİYADIR

# XARİCDƏ İŞ ARZULAYANLAR ÜÇÜN DÜŞÜNÜLƏN TƏLƏLƏR



Hazırda "Avropada işə düzəldirik" deyən şirkətlərin sayı kifayət qədərdir. Vətəndaşlar müəyyən ödəniş qarşılığında həmin şirkətlərin xidmətlərindən istifadə edirlər. Amma zaman-zaman bu şirkətlərin qanunsuz əməllərinin, vətəndaşları yalançı vədlərlə aldatdıqlarının şahidi oluruq.

SEVİNC ABBASOVA

Son illər Avropa ölkələrində işləmək istəyən azərbaycanlıların sayı artıb. "Qoca qitə"də işləmək arzusunda olanlar bunu müxtəlif yollarla reallaşdırırlar. Hazırda Bakıda "Avropada işə düzəldirik" deyən şirkətlərin sayı kifayət qədərdir. Vətəndaşlar müəyyən ödəniş qarşılığında həmin şirkətlərin xidmətlərindən istifadə edirlər. Amma zaman-zaman bu şirkətlərin qanunsuz əməllərinin, vətəndaşları yalançı vədlərlə aldatdıqlarının şahidi oluruq. Ekspertlər hesab edirlər ki, "qoca qitə"də işləmək arzusunda olanlar yüz ölçüb, bir biçməlidirlər. Çünki istənilən vaxt dələduzların qurbanına çevrilə bilərlər.

Bəs, görəsən, xaricdə həqiqətən real iş təklif edən şirkətlər mövcuddurmu? Bunun arzusunda olanlar daha çox nələrə diqqət yetirməlidirlər?

### İŞAXTARANLAR QURBANA NECƏ ÇEVRİLİR?

Avrasiya Miqrasiya Təşəbbüsləri Platforması İctimai Birliyinin sədri Azər Allahverənov bildirib ki, Azərbaycanda belə şirkətlər 1990-cı illərin ortalarından yaranmağa başlayıb: "İndi bu fəaliyyətlər MMC-lər tərəfindən həyata keçirilir. Düzdür, onların sayı çoxdur, amma fəaliyyətləri yetərli deyil". A.Allahverənovun sözlərinə görə, bununla bağlı çoxsaylı şikayətlər mövcuddur: "Əsas şikayətlər insanların aldadılaraq pullarının mənimsənilməsi, verilən vədlərdən tamamilə fərqli fəaliyyət sahəsinə cəlb edilməsi ilə bağlıdır. Nəticədə iş üçün xaricə üz tutan şəxslər getdiyi ölkədə çətin vəziyyətdə qalır və qeyri-qanuni miqrant səviyyəsinə düşür. Eyni zamanda, mütəşəkkil cinayətkar qrupların qurbanına çevrilir. Təəssüflər olsun ki, bu tipli problemlər hələ də xaricdə əmək fəaliyyəti ilə məşğul olmaq istəyən şəxslərin vasitəçilərə müraciət etmək həvəsini azaltmayıb".



Azər Allahverənov

## YÜZ ÖLÇÜB, BİR BİÇİN

Ekspert tövsiyə edib ki, vətəndaş əgər xaricdən iş təklifi alıbsa, bütün sənədləşmə işlərini, danışıqları hüquqşünasların bilavasitə iştirakı ilə həyata keçirsin: "Təhlükədən sığortalanmaq üçün xarici dil bilikləri də mütləqdir. Namizədin dil biliyi olmalıdır ki, kommunikasiya prosesində aldadılmasın. Dəfələrlə şahidi olmuşuq ki, insanlar məhz dil bilikləri olmadığından aldadılıblar. Bundan başqa, iş təklifi alınan şirkətin fəaliyyəti ilə hərtərəfli maraqlanmaq lazımdır. Bu istiqamətdə məlumat toplamağın müxtəlif yolları var. Tövsiyə edirəm ki, soydaşlarımız xaricdə iş təklifi alarkən dərhal evlərini, maşınlarını satıb köçməsinlər. Təklifi dəyərləndirməzdən öncə yüz ölçüb, bir biçsinlər".



### "VASİTƏÇİ ŞİRKƏTLƏR MÜTLƏQ ARAŞDIRILMALIDIR"

Slovakiyadan iş vizası gözləyən Fərid Ələkbərov deyib ki, xarici ölkələrdə işləmək arzusunda olanlar vasitəçi şirkətləri mütləq araşdırmalıdırlar: "Şəxsən mən təxminən bir aydan çox şirkətləri araşdırdım. Sosial şəbəkələrdə həmin şirkətlərlə bağlı yazılan şərhlərlə tanış oldum. Şərh yazan insanlarla birbaşa əlaqə yaratdım. Nəhayət, Polşaya işləməyə yollandım. Orada Böyük Britaniyaya məxsus zavodda çalışırdım. Vizamın müddəti başa çatdığından geri döndüm. Hazırda Slovakiyadan iş vizası gözləyirəm".



Elməddin Əliyev

## VİZA MƏSƏLƏSİNƏ DİQQƏT

İşədüzəltmə üzrə mütəxəssis Vüsal Yusifov bildirib ki, işaxtaranlar vasitəçi şirkətlərin fəaliyyətini araşdırmaqla yanaşı, viza məsələsinə də diqqət yetirməlidirlər: "Birbaşa viza alınması mümkün olmayan ölkələrə müraciət etmək doğru deyil. Məsələn, bəzi şirkətlərin elanlarında Norveç, Niderland, Almaniya kimi ölkələrdən iş təklifləri öz əksini tapıb. Dünyagörüşü, az-çox araşdırma qabiliyyəti olan insan bilməlidir ki, bu ölkələrə Azərbaycandan birbaşa viza almaq çox çətindir. Bəzi ölkələrə ümumiyyətlə mümkünsüzdür. Amma bəzi şirkətlər işaxtarana bu ölkələrdə işlə təminat sözü verirlər. Həmin ölkələrdə vakansiyalar ola bilər. Lakin Azərbaycandan birbaşa viza alınması mümkün deyil. İşaxtaran yalnız hansısa Şengen ölkəsinə gedib orda oturum aldıqdan sonra həmin ölkələrə keçid edib özü iş tapıb işləyə bilər. Təbii ki, bəzi qanunsuz yollar da mümkündür. Məsələn, vizaları yararsız hala salırlar, pasportları yandırırlar və s. Qeyri-leqal yolları müştəriyə məsləhət görmürük. Çünki sonradan çox əziyyət çəkirlər, qaçqın düşərgələrinə düşürlər. Hazırda iş üçün ən məsləhətli ölkələr Polşa, Çexiya, Latviya, Litva və Slovakiyadır".

### ELƏ MAAŞ VƏD EDİRLƏR Kİ...

İşçi qüvvəsinin beynəlxalq miqrasiyasını xarici partnyorlar vasitəsilə həyata keçirən şirkətlərdən birinin rəhbəri Elməddin Əliyev bildirib ki, Azərbaycan vətəndaşları hansısa vasitəçi şirkət seçməzdən öncə ölkəni seçməlidirlər. Onun sözlərinə görə, əməkçi miqrantlar seçdikləri ölkə barədə bütün məlumatları rəsmi mənbələrdən toplamalıdırlar: "Bu kimi məlumatları "Tik Tok"dan deyil, rəsmi platformalardan əldə etsinlər. Hər ölkənin miqrasiya siyasətini əhatə edən saytlar var. Vətəndaşlar niyə aldanırlar? Çünki məlumatları rəsmi deyil, qeyri-rəsmi mənbələrdən əldə edirlər. Bəzi vasitəçilər də bundan sui-istifadə edərək "cəlbedici təklif"lər irəli sürürlər. Tutaq ki, işaxtarana elə maaş vəd edirlər ki, əslində o ölkədə həmin əməkhaqqı yoxdur. Məsələn, şirkət təklif edə bilər ki, Slovakiyada zavodda 3000 avro aylıq əməkhaqqı təklif olunan iş var. Ən sadə variant deyirəm, işaxtaran "Google"da Slovakiyada 2024-cü ildə minimum əməkhaqqının nə qədər olmasına dair axtarış verməlidir. Axtarışın nəticəsinə əsasən, o, başa düşəcək ki, getdiyi vəzifədə həmin maaş var, ya yoxdur".

Ekspert vurğulayıb ki, hazırda azərbaycanlıların ən rahat iş tapdığı Avropa ölkəsi Slovakiyadır: "Slovakiyada gedib çalışırlar, istədikləri vaxt da məzuniyyətə gələ bilirlər. Bu ölkədə minimum aylıq məvacib 1000 avrodan başlayır. Gündə 8 saatlıq iş rejimidir".

# BƏZƏK ƏŞYASINDAN İNVESTİSİYA ALƏTİNƏ DOĞRU

Dünya birjalarında qızılın qiyməti növbəti rekord vurub. Hər keçən gün insanların qızıla marağının artdığı müşahidə edilir. Azərbaycanda da qızıl artıq bəzək əşyası kimi deyil, etibarlı investisiya aləti kimi nəzərdən keçirilir.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az



Bu həftə dünya birjalarında qızılın qiyməti növbəti rekord vurub. İlk dəfə olaraq qiymətli metalın qiyməti 2500 dolları keçib. ABŞ Federal Rezerv Sisteminin uçot dərəcəsini sabit saxlamaq barədə qərarından sonra qızlın qiyməti daha bir psixoloji həddi keçib. Belə ki, avqustun əvvəlində "Comex" birjasındakı hərracların gedişində ilk dəfə olaraq qızılın bir unsiyasının qiyməti 2500 dolları keçərək əvvəlcə 2501 dollar, daha sonra 2502 dollar olub. Sonradan qızılın qiyməti sabitləşib və 2500 dollardan aşağı düşüb. Ümumilikdə, son bir ayda qızılın unsiyasının qiyməti təqribən 90 dollar və ya 3,8 faiz, son bir ildə 510 dollar və ya 26 faiz bahalaşıb.

Belə bir fikir var ki, indiki qeyri-sabitlik şəraitində qızıl ən etibarlı yatırımdır. Bəs qızıla sadə insanların yatırım etməsi sərfəlidirmi?

### PANDEMİYADAN SONRA ENMƏYƏN QİYMƏT

Azərbaycan Zərgərlər Assosiasiyasının sədri Toğrul Abbasquliyevin sözlərinə görə, qızılın qiyməti böhranlar zamanı daim artır: "Son 15-20 ildə ən ciddi artım pandemiya zamanı müşahidə edildi. Koronavirus pandemiyasına qədər bir qram 999 əyar qızılın qiyməti maksimum 40-42 dollar idi. Böhrandan sonra isə qiymətlər 60-62 dollara qədər qalxdı. Son bir neçə ayda isə 78-79 dollara qədər qalxıb. Bunu dünyada baş verən müəyyən böhranlara, müharibələrə də bağlaya bilərik. Bunlardan Rusiya-Ukrayna müharibəsi, İsrail-Fələstin münaqişəsini göstərmək mümkündür. Bunlar qızıla investisiya aləti kimi çox ciddi formada təsir edir. Böhranlarda investisiya alətlərinə tələbat artdığından qızılın qiyməti də yüksəlir".

T.Abbasquliyev bildirdi ki, artım bütün qızıl növlərini əhatə edir: "Qızıl dedikdə söhbət sadəcə 999 əyarlıdan getmir. Zərgərlik məmulatlarını da buraya aid etmək olar. Məsələn, 585 və ya 750 əyarlı qızılların da qiyməti daim qalxır. Çünki qızılın birjadakı ümumi qiyməti yüksəlir. Qeyd etdiyim qiymət artımlarından sonra artıq insanlar zərgərlik məlumatlarına tək bəzək əşyası kimi deyil, həm də investisiya aləti kimi yanaşırlar. Qızılı həm zinət əşyası olaraq fiziki yolla, həmçinin investisiya saytlarından almaq mümkündür. Qiymətlər eyni səviyyədə dəyişdiyi üçün hər bir halda yatırım alətidir".



Toğrul Abbasquliyev

### QEYRİ-MÜƏYYƏNLİKLƏR DÖVRÜNDƏ İNSANLAR QIZILA YÖNƏLİRLƏR

Sədrin sözlərinə görə, qiymətlər birja ilə tənzimləndiyi üçün gələcəklə bağlı proqnoz vermək çətindir: "Qızılın qiyməti son bir il ərzində 60-62 dollara qədər qalxdı. Amma sonra 50-52 dollara qədər endi. Bir müddət sonra yenidən əvvəlki vəziyyətinə qayıtdı. Lakin dünyanın böyük banklarının ekspertlərinin rəylərinə görə qızılın qiyməti qalxmaqda davam edəcək".

İqtisadçı Elçin Rəşidov isə qızılın qiymətindəki baş verən dəyişmələri insanların yatırım seçimləri ilə əlaqəndirdi: "Çaxnaşmalardan, böhranlardan əvvəl bizneslərin, səhmlərin, qiyməti ucuzlaşır. Belə fonda insanlar pullarını qızıla yatırır və nəticədə onun qiyməti artır. Bəzən də insanlar məhz fiziki şəkildə qoruya biləcəkləri investisiyaya yatırım edirlər. Çünki insanların sistemlərə inamı azalır. Riskləri nəzərə almalı olurlar. Siyasi qeyri-müəyyənlik dövründə insanlar yatırımlarını qızıla dəyişirlər. O baxımdan qızıla investisiya hazırkı dövrdə doğru qərardır". E.Rəşidov bildirdi ki, investisiya saytlarında qızılın növlərinə görə qiymətləri də dəyişir. Qızılı həmin saytlardan da almaq mümkündür: "Onlar daşınmanı da daha rahat edirlər. Amma həmin saytların yerləşdiyi ölkənin nə qədər risk altında olması da rol oynayır. Unutmayaq ki, qızıla yatırım etmək o demək deyil ki, bu, sizi yüz faiz irəli aparacaq. Amma vəsaitinizi maksimum səviyyədə qoruyacaq. Əgər artım olarsa, əlavə qazanc da əldə etmək mümkündür".

### Qazanc olsa da, təhlükə də mövcuddur

İqtisadçının fikrincə, yatırım edərkən istənilən halda riskləri və təhlükələri də nəzərə almaq lazımdır: "Qızıl elədir ki, onu hər kəs alıb saxlaya bilir. Amma onu fiziki şəkildə qorumaq riskli məsələdir. Bütün vəsaiti bir yatırıma ayırmaq düzgün deyil. Risklərin idarə edilməsinin əsas metodologiyalarından biri də budur. Orada bildirilir ki, əldə olan vəsaiti bir neçə investisiya növünə yatırmaq daha uğurludur. Vəsaitinizin bir hissəsini buraya ayıra bilərsiniz. Amma vəsaitin nə qədərini məhz qızıla yatırmaq məsələsi individualdır. Bu, sizin yaşadığınız ölkədən, oradakı vəziyyətdən asılıdır".

Müsahibimiz dedi ki, Azərbaycan qızıl bazarındakı vəziyyət dünyada baş verən proseslərlə tənzimlənir: "Dünyada çaxnaşmalar azaldıqca qızılın qiyməti stabilləşə bilər. Hətta hazırkı qiymətdən aşağı da düşməsi mümkündür. Amma yaxın gələcək üçün proqnoz budur ki, qızılın qiyməti növbəti rekord hədlərə çatacaq. Dünya qızıl bazarında hansı proseslər baş verəcəksə, Azərbaycan üçün də eyni vəziyyət gözlənilir. Çünki ölkəmizin qızıl bazarı da dünyadakı proseslərlə tənzimlənir".



Elçin Rəşidov

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Könül Cəfərli, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Laləə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 1856
Tiraj: 2350
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

ÜÇ ƏSRİN QƏZETİ Kaspi



# “ZADƏGAN İÇKİSİ”NƏ ARTAN MARAQ

Bu ilin əvvəlindən başlayaraq Azərbaycanda viski istehsalı ciddi şəkildə artmağa başlayıb. Ekspertlər istehsalın artmasında ölkədə içki zövqünün dəyişməsinin, həmçinin Rusiya və Belarusa qarşı sanksiyaların xüsusi rol oynadığı qənaətindədirlər.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Azərbaycanda viski istehsalı üç dəfəyədək artıb. Belə ki, 2024-cü ilin yanvar-iyun aylarında ölkədə 311,4 min dkl viski istehsal edilib. Dövlət Statistika Komitəsinin hesabatında bildirilir ki, ötən ilin eyni dövrünün göstəricisi ilə müqayisədə istehsal 192,4 min dkl və ya 2,6 dəfə artıb.

Bəs viski istehsalının artmasının səbəbi nədir? Azərbaycanda viskiyə tələbat artıb?

### RUS İDXALÇILARI AZƏRBAYCANA ÜZ TUTUR

Azərbaycan Şərab İstehsalçıları və İxracatçıları Assosiasiyasının sədri Elçin Mədətov “Kaspi” qəzetinə açıqlamasında bildirdi ki, son dövrlərdə viski istehsalının artımı Rusiya və Belarusa tətbiq olunan sanksiyalarla bağlıdır: “Viskinin klassik istehsalçıları ABŞ və İngiltərə Rusiyaya sanksiyalar tətbiq edirlər. Rus idxalçıları bu tələbatlarını ödəmək üçün Azərbaycan və Orta Asiya ölkələrinə üz tuturlar. Statistikadakı artım sırf bununla bağlıdır”.

### AZƏRBAYCAN VİSKİSİNƏ TƏLƏBAT YOXDUR?

Assosiasiya sədrinin sözlərinə görə, Azərbaycan viskisinə dünyada və ölkəmizdə tələbat istənilən səviyyədə deyil: “Ümumiyyətlə, öz istehsalımız olan viskinin şərabımız kimi dünyada məşhurluq qazanacağına inanmıram. Azərbaycan şərab istehsalçısı kimi postsovet ölkələrində kifayət qədər tanınır, amma dünya alkoqol istehsalçıları xəritəsində viski istehsalçısı kimi məşhurlaşmayıb. Viski deyəndə Şotlandiya, İngiltərə və ABŞ yada düşür. Rusiya öz tələbatını ABŞ və Avropadan təmin edə bilmədiyi üçün Azərbaycana üz tutur, bu da statistikada özünü göstərir”.



Elçin Mədətov

### ƏHALİ TƏDRİCƏN ARAQDAN UZAQLAŞIR

Mütəxəssis vurğulayır ki, dünyada əhali tədricən araqdan uzaqlaşır, elit içkilərə maraq artır: “İxrac statistikasına nəzər saldıqda da görəcəyik ki, istehsalın üç dəfə artması sırf ixracla bağlıdır. Amma o demək deyil ki, ölkə daxilində viskiyə tələbat yoxdur. Tələbat var, amma bu, hələ ki, stabildir. Ümumiyyətlə, dünyada elit içkilərə maraq artır. Yəni əhali tədricən araqdan və digər içkilərdən uzaqlaşıb viski, tekila, rom kimi spirtli içkilərə maraq göstərir”.




### “Zadəgan içkisi” desert kimi təqdim edilir

Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutunun direktor müavini, texnika üzrə fəlsəfə doktoru Teymur Musayev isə bildirir ki, viski “zadəgan içkisi” sayılır və əyləncə yerlərində gənclərin ən çox müraciət etdiyi içkidir: “Hazırda yay fəslidir və dəniz mövsümüdür. Viski buz və meyvə ilə təqdim edildiyi üçün xüsusilə bu dövrlər daha çox içilir. Çimərliklərdə desert kimi təqdim edilir. Şərab klassik içkidir, viski isə sırf əyləncə xarakterlidir. Ona görə də statistikada fərqin olmasını normal hesab edirəm”.



Teymur Musayev

## AZƏRBAYCANDA VİSKİ İSTEHSALI İSTƏNİLƏN SƏVİYYƏDƏ DEYİL

Şərabçılıq üzrə mütəxəssis vurğulayır ki, ölkədə təbii yollarla istehsal edilən viski yox dərəcəsindədir: “Azərbaycanda viski istehsalı istənilən səviyyədə deyil. Hazırda xaricdən gətirilən inqrediyentlər sayəsində istehsal edilir. Təbii yolla, sırf Azərbaycan məhsulları ilə istehsal edilən viski demək olar ki, yoxdur. Çünki viski qarğıdalı, çovdar və yaxud şəkərləndirilmiş arpadan hazırlanır. Hazırlıq prosesində 70 faiz qarğıdalıdan, 30 faizi isə digər dənli bitkilərdən istifadə olunur. Sırf öz istehsalımız azdır, çünki maya dəyəri baha başa gəlir. Hazırlanma prosesi çətindir və hazırda ölkə bazarı üçün bu spirtli içkini istehsal etmək asan deyil”.



Fuad İbrahimov

### ARTIQ ƏNƏNƏVİ İÇKİLƏRLƏ YANAŞI, VİSKİYƏ DƏ TƏLƏBAT VAR...

İqtisadçı ekspert Fuad İbrahimov deyir ki, artıq ənənəvi içkilərlə yanaşı, viskiyə də tələbat var, amma bunu hələ ciddi artım kimi qiymətləndirə bilmərik: “Viski istehsalının həcminin üç dəfəyədək artmasını bu sahədə ciddi sıçrayış kimi hesab edə bilmərik. Sadəcə olaraq, əvvəlki dövrlərdə daha az istehsal olunurdu, indi tələbat qismən artıb. Spirtli içkilərlə bağlı nəzərə almaq lazımdır ki, sovet dövründən Azərbaycanda bu sahədə istehsal olub, şampan, araq, şərab, pivə kimi ənənəvi içkilər bizim cəmiyyətdə qəbul olunub. Sovetlər ərazisində kifayət qədər tanınan brendlərimiz var idi. Bu gün də Rusiya bazarında bizim spirtli içkilər öz yerini tutub. Amma viski ənənəvi içkilərimizlə müqayisədə daha çox qərbyönümlü içki kimi qəbul olunur. Bu içki növü müstəqillik əldə etdikdən sonra postsovet məkanına daxil oldu”.

### VİSKİNİN POPULYARLAŞMASI PROQNOZLAŞDIRILIR

İqtisadçının sözlərinə görə, müasir dövrdə məclislərdə viskidən istifadə edənlərin sayı artır, hətta bəzən ənənəvi içkiləri üstələyir: “Müsbət hal odur ki, artıq viski yerli istehsal formatında bazara daxil olub və xaricdən gələn digər məhsullarla sağlam rəqabət apara bilir. Hazırda viskinin digər içkilərdən daha çox istifadəsi proqnozlaşdırılır və bu, mərhələli şəkildə artacaq. Çünki yerli istehsal olduğu üçün qiymət əlçatanlığı da insanların istifadə imkanlarını reallaşdırır”.

ÜÇ ƏSRİN QƏZETİ Kaspi



# TURİZMDƏ YENİ MARŞRUT GÖZLƏNTİSİ

Yaxın gələcəkdə Azərbaycanda geoparklar yaradılacaq. Bunlar yeni növ beynəlxalq statuslu xüsusi mühafizə rejimli ərazilər olmaqla səyahət və istirahət üçün mövcud marşrutlar sırasına daxil ediləcək.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az








Foto: Ramil Yunus/Global Media Group

Ölkəmizdə ilk dəfə olaraq geoparkların yaradılması planlaşdırılır. Bunlar yeni növ beynəlxalq statuslu xüsusi mühafizə rejimli ərazilər olmaqla səyahət və istirahət üçün mövcud marşrutlar sırasına daxil ediləcək. Geoparkın "Bakı və Abşeron yarımadasının palçıq vulkanları qrupu Dövlət Təbiət Qoruğu"nun bazasında yaradılması nəzərdə tutulur. Bu yenilik ölkəmizin UNESCO-nun Qlobal Geoparklar Şəbəkəsinə qoşulmasını da təmin edəcək.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ETSN) tərəfindən həyata keçiriləcək layihənin turizmin inkişafına da dəstək verəcəyi gözlənilir.

### UĞURLU SOSİALYÖNÜMLÜ BİZNES LAYİHƏLƏR

Dünyada UNESCO-nun siyahısında olan 143 geopark var. 2002-ci ildən Avropada mövcud olan Qlobal Geoparklar Şəbəkəsinin mütəxəssisləri hesab edirlər ki, bu parklar uğurlu sosialyönümlü biznes layihələridir. Geoparklar müxtəlif geoloji proseslərin və təbiət hadisələrinin tədqiqi üçün təbiət elmi laboratoriyaları olmaqla yanaşı, iqtisadi əhəmiyyət də daşıyırlar. Belə ki, kiçik biznesin cəlb edilməsi və yerli təbiətin qorunması ilə ekoloji ərazilərin hərtərəfli və davamlı iqtisadi inkişafı təmin edilir.

### PALÇIQ VULKANLARININ BAZASINDA YARADILACAQ

Bütün dünyada olduğu kimi, bizim ölkəmizdə də özünəməxsus geoloji və landşaft xüsusiyyətlərinə görə beynəlxalq əhəmiyyətli ərazilər mövcuddur. Xüsusi mühafizə olunan təbiət ərazilərinin genişləndirilməsi ilə bağlı bir sıra işlər həyata keçirilir. Məsələn, Zaqatala Dövlət Təbiət Qoruğunun bazasında Biosfer Qoruğunun, Samux və Qax rayonları, Alazan (Qanıx) çayı vadisi və Axar-baxar dağ silsiləsinin ərazisində yeni milli parkın yaradılması ilə bağlı layihələr buna misaldır.

Bəs geoparkların yaradılmasının həm turizm, həm iqtisadi baxımdan ölkəmiz üçün hansı əhəmiyyəti olacaq?

ETSN yanında Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin rəis müavini Rəşad Allahverdiyev sorğumuza cavabında geoparkların Azərbaycan üçün yeni bir anlam olduğunu bildirdi: "Layihə geoloji obyektlərin qorunması və ərazidə sosial-iqtisadi artımın yüksəldilməsi məqsədi daşıyır. Ölkəmizdə çox böyük geoloji obyekt potensialı var. Bu obyektlərin bazasında geoturizmi inkişaf etdirməklə bağlı böyük imkanlar mövcuddur. Əsas istiqamət ətrafdakı insanların sosial rifahının gücləndirilməsi, dayanıqlı inkişafın təmin edilməsidir".

ETSN-nin rəsmisi ölkəmizdə belə bir obyekt üçün palçıq vulkanları bazasının uyğun olduğunu deyir: "Məqsədimiz geoparkı palçıq vulkanların bazasında yaratmaqdır. Çünki palçıq vulkanların geoloji obyekt kimi böyük potensialı var. Ümumiyyətlə, Azərbaycan vulkanlarla zəngin ərazidir. Vulkanların fəaliyyətdə olması sırf geoloji prosesləri göstərir".



R.Allahverdiyevin sözlərinə görə, obyektə müəyyən səfərlərin təşkil olunması, eyni zamanda ali məktəblər üçün təlim və seminarların keçirilməsi, geoloji biliklərin artırılması istiqamətində maarifləndirmə tədbirlərinin təşkili və s. nəzərdə tutulub: "Geopark yaradılandan sonra müvafiq nominasiya sənədi hazırlanaraq UNESCO-nun geoparklar şəbəkəsinə qoşulmağı düşünürük". Geopark ərazisində kiçik biznesin inkişafına gəlincə, ETSN rəsmisi qeyd etdi ki, bu, obyektin ərazisində yaşayan insanların turizm fəaliyyəti ilə məşğul olma, yaşayış yerlərinin kirayəsi, bələdçilik və s. fəaliyyətlərinə imkan yaradacaq: "Geoparkın yaradılması həmçinin kənd məhsullarının satışı, gəzinti turlarının təşkilinə şərait yaradacaq. Bu da ərazidəki əhalinin güzəranının yaxşılaşmasına dəstək olacaq".

## GEOPARKIN TURİZMİN İNKİŞAFINDA ROLU

Geoparkın yaradılmasının turizmin inkişafında rolunun ola biləcəyi şübhə doğurmur. Dünya turistlərini qeyri-adi təbiət hadisələri, təbii abidələr, maraqlı məkanlar cəlb edir. Hərçənd layihə ilə bağlı hələ Dövlət Turizm Agentliyindən münasibət bildirmək istəmədilər: "Yaradılandan sonra bir söz deyə bilərik".

### EKSPERT BAZAR ARAŞDIRMASINA EHTİYAC DUYUR

Turizmçi Əfsun Əhmədov isə düşünür ki, bu istiqamətdə düzgün bazar araşdırılması aparılmalı və mütləq reklam və marketinq işləri həyata keçirilməlidir: "Turizm şirkətləri mütləq şəkildə bu layihələrin müzakirələrində iştirak etməli və öz fikirlərini bildirməlidirlər. Hesab edirəm ki, bu cür parkların yaradılması həm yeni marşrutların təşkilinə, həm də Azərbaycanın turizm potensialına maraq göstərən qonşu və digər ölkələrdən daha çox turistlərin axınına səbəb ola bilər".

## "TURİSTLƏRİN İSTƏKLƏRİ FƏRQLİ OLUR"

Azərbaycan Turizm Bələdçiləri Assosiasiyasında (ATBA) isə hesab edirlər ki, yalnız geopark yaradılıb istifadəyə veriləndən sonra ona olan marağı müəyyənləşdirmək mümkün olacaq: "Turistlərin istəkləri fərqli olur. Elə turistlər var ki, mədəniyyət nümunələri, tarixi yerləri sevirlər. Elələri də var ki, onları daha çox təbiət guşələri, coğrafi məkanlar maraqlandırır. Məsələn, Tufan dağa kanatla qalxıb Qafqaz dağlarının mənzərələrinə, meşələrə tamaşa edirlər. Palçıq vulkanlara səfər edən turistlər də həmişə razı qalırlar. Biz turistə həmişə əlimizdə turistik baza olan yerləri təqdim edirik. Geopark yaradılandan sonra təbii ki, biz də turistlərə təqdim edəcəyik. Dünya təcrübəsində bu istiqamətdə uğurlu nəticələr varsa, ümid edirik ki, bizdə də turistlər tərəfindən müsbət qarşılanacaq".



Rəşad Allahverdiyev

Əfsun Əhmədov

# “ORKESTR ÇOXDANIŞAN DİRİJORU SEVMİR”

**Əməkdar artist Əyyub Quliyev:** “Konsert zamanı orkestrin quruluşuna, dirijorun funksiyalarına diqqət edirdim. Anladığım da olurdu, anlamadığım da. Amma marağım hədsiz idi. Atam bunu görüb meylimin nəyə olduğunu başa düşdü”.



Azərbaycanın yeni nəsil dirijorları musiqimizə töhfələrini verirlər. Bugünkü həmsöhbətimiz Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının dirijoru, Bakı Musiqi Akademiyasının Xor dirijorluğu kafedrasının baş müəllimi, Vasili Safonov adına Rusiya Akademik Dövlət Filarmoniyasının baş dirijoru, Əməkdar artist Əyyub Quliyevdir.

● **Tar ifaçısı kimi tanıdığımız Əyyub Quliyevi sonradan dirijorluq sənətində gördük.**

● Xüsusi bir seçim qarşısında qalmadım. Bu, təbii proses kimi baş verdi. Uşaqlıqdan simfonik musiqini çox sevirdim. Şahmat fiqurlarını orkestrin quruluşuna uyğun düzürdüm və “at”ı mərkəzdə dirijor kimi qoyurdum. Musiqi səsləndirirdim və onu bu fiqurların ifa etdiyini təsəvvür edirdim. Simfonik orkestrlə həm atam Ramiz Quliyevlə, həm də solo konsertim olurdu. Konsert zamanı orkestrin quruluşuna, dirijorun funksiyalarına diqqət edirdim. Anladığım da olurdu, anlamadığım da. Amma marağım hədsiz idi. Atam bunu görüb meylimin nəyə olduğunu başa düşdü.

**“BİZİM MƏSULİYYƏTİMİZ İKİQATDIR”**

● **Dirijor musiqiçilərlə necə dil tapmalıdır?**

● Pianoçu pianoda, fleytaçı fleytada ifa edir. Dirijorun aləti isə orkestrdir. Dirijor özü bilavasitə ifa etməsə də, səsləri başqa ifaçıların vasitəsilə dünyaya gətirir. Səhnəyə qədər günlərlə məşq gedir, burada orkestr və dirijor arasında ünsiyyət qurulur. Necə ki, iki insan arasında münasibətin qurulması üçün ünsiyyət vacibdir, bizdə də belədir. Amma bizim məsuliyyətimiz ikiqatdır. Çünki insanlar arasında şəxsi münasibət alınmasa, onlar ayrılırlar. Mənim isə belə bir şansım yoxdur, nəticə göstərməliyəm. Musiqiçilər müxtəlifdir və hər birinin fərqli xarakteri var. Bəzən orkestrdə yaşlı, təcrübəli, tanınmış dirijorlarla işləmiş musiqiçilər olur. Onların xətrinə dəyəcək, qəlbini qıracaq heç nə deməməli, asta, yavaş addımlarla özünə yaxınlaşdırmalısan. Bunun üçün işgüzarlıq, intellekt, səbir lazımdır. Həmçinin dirijor sənətinin texnikasını bilməli, yaxşı psixoloq olmalısan. Burada səmimiyyət çox vacibidir. Sənin bir ideyan var. Onu musiqiçilərə təqdim etməli, inandırmalısan. Dirijor orkestri inandırmasa, orkestr onu qəbul etmir. Bu da ünsiyyət problemindən yaranır. Orkestr çoxdanışan dirijoru sevmir.

**“DİRİJORUN HƏTTA ADDIMLARINDA DA XARİZMA OLMALIDIR”**

● **Peşəkar dirijor nə ilə fərqlənir?**

● Alman bəstəkarı Rixard Ştrausun atası Münhen Opera Teatrında valtorn ifaçısı olub. O deyirdi ki, biz dirijorun keyfiyyətini addımlarından bilirik. Yəni dirijorun hətta addımlarında da xarizma, aristokratlıq, mədəniyyət olmalıdır. Əsərin ifasına hazırlıq, erudisiya olmalıdır.

● **Eyni müəllimdən, eyni proqram üzrə dərs alan dirijorların içindən öz individuallığını necə büruzə vermək olar? Məsələn, İlya Musinin tələbələrinin hər biri ayrı-ayrılıqda parlaq dirijorlar oldular və hər birinin öz üslubu var.**

● Müəllimlərdən çox şey asılıdır. Elə müəllim var ki, bir şablon yaradır və bütün tələbələrə eyni cür dərs deyir. Məcbur edir ki, hamısı buna riayət etsinlər. Ona görə də o dirijorlar sonradan bir-birilərinə bənzəyirlər, öz yerlərini tapa bilmirlər. Müxtəlif məktəblərdə müxtəlif müəllimlərdən təhsil almışam. Çalışmışam hərəsindən özümə lazım olanı götürüm. İlya Musinin adını çəkdiniz, o rus dirijorluq məktəbinin təməlini qoyanlardan biridir. Bir neçə nəsil dirijor yetişdirib. Onun tələbələri bir-birindən fərqlənir. Çünki onların individual keyfiyyətlərini öldürmür, əksinə, tapıb inkişaf etdirirdi. Mən Musinin nəvəsi sayıla bilərəm. Çünki onun ən sevimli tələbəsi və assistentinin tələbəsi olmuşam.


SÖHBƏTLƏŞDİ
XANIM AYDIN

> *“Pandemiyadan sonra tamaşalar anşlaqla keçir. Amma yenə də müəyyən problemlər var. Düşünürəm ki, PR lazımdır.”*





**Fotolar:** Əjdər İbrahimov/Global Media Group

**“ONUN HƏYƏCANI VƏ GÖZLƏNTİSİ İLƏ YAŞAYIRAM”**

● **Fikrət Əmirovun “Min bir gecə” baleti yeni quruluşda Pekində sizin rəhbərliyinizlə ilk dəfə təqdim olunacaq.**

● “Min bir gecə” baleti Pekin Milli İfaçılıq Mərkəzinin səhnəsində Sankt-Peterburqdakı Mariinski Teatrı Primorski səhnəsinin (Vladivostok) balet truppasının ifasında ilk dəfə nümayiş olunacaq. Səhnə əsəri Rusiyanın Əməkdar artisti Eldar Əliyevin yeni quruluşunda, müasir texnikanın köməyi ilə 3D formatda yeni dekorasiyalarla hazırlanıb. Baleti mənim rəhbərliyimlə Çin Milli Baletinin simfonik orkestri müşayiət edəcək. Bizim əsərin o möhtəşəm sarayda təqdim olunması çox böyük uğurdur. Hazırda onun həyəcanı və gözləntisi ilə yaşayıram.

**“ÇALIŞIRAM Kİ, ƏSƏRLƏRİ ORİJİNALDAN OXUYUM”**

● **Deyilənlərə görə, peşə sahibləri arasında ən uzunömürlüləri dirijorlardır...**

● Doğrudan da, belə bir deyim var. Amma mənə elə gəlir ki, bu, xüsusilə bizdən əvvəlki nəslə aiddir. Onlar sırf bir işlə məşğul olub, başqa heç bir ailə-məişət problemləri ilə özlərini yormayıblar. Hətta ailə quranda alınmayanda tez ayrılıb, yenidən evləniblər. Beləcə öz rahatlıq və xoşbəxtliklərini qoruyublar.

● **Bu gün teatrlarımızda nə çatmır?**

● Pandemiyadan sonra tamaşalar anşlaqla keçir. Amma yenə də müəyyən problemlər var. Düşünürəm ki, PR lazımdır. İctimai nəqliyyatda, ticarət mərkəzlərində afişaya, reklama ehtiyac var. Cəmiyyəti, xüsusən də gəncləri cəlb etmək lazımdır. Rusiyada “Puşkin kartı” var. Müəyyən məbləğ ödəyib kartı alırsan və tamaşalara endirimli qiymətə gedirsən. Bunu da tətbiq etmək olar. Mədəniyyətimiz çox zəngindir. Dövlətimiz onun inkişafı və təbliği üçün əlindən gələn edir. Amma kütləvi informasiya vasitələrinin də dəstəyinə ehtiyacımız var. İnsanlar da mədəniyyətimizə qayğı ilə yanaşmalıdır. Məşhur italyan bəstəkarı Cüzeppe Verdi xəstə olanda qaldığı hotelin yanından keçən yola saman səpiblər ki, karet keçəndə səsindən narahat olmasın. Mədəniyyət cəmiyyətin üzüdür. Ona belə qayğı ilə yanaşmaq lazımdır.

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
17 AVQUST ŞƏNBƏ 2024
www.kaspi.az



Bu mövsüm Avropa kuboklarının pley-off mərhələsində Azərbaycanın iki klubu yarışacaq. Qeyd edək ki, son dəfə ölkəmizin iki klubu avrokubokların pley-off mərhələsində 2016/17 mövsümündə çıxış edib.



## “YAŞADIQLARIMIZ KOMANDA ÜÇÜN BÖYÜK TƏCRÜBƏ OLDU”

“Zirə”nin baş məşqçisi Rəşad Sadıqov oyundan sonra qarşılaşmanın çox gərgin keçdiyini bildirib: “Gözlədiyimizdən də gərgin matç keçdi. Bu mərhələdə zəif rəqiblər, oyunlar olmur. Məni sevindirən odur ki, futbolçularımız gərginliyə dözdülər”.

Mütəxəssis penaltilər seriyasında dörd qurtarış edən Tiaqo Silvanı xüsusi tərifləyib: “Penaltilərdən öncə onu tənqid etmişdim. Tənqid etdim ki, aqressivləşsin. Böyük ustalıq göstərdi. Dedim, “Şerif”lə oyundakı penaltilərdən narazı qalmışam, özünü göstərməlisən. O da beş penaltidən dördünü çıxardı. Asan məsələ deyildi. Bunun öhdəsindən gəldi. Onların da qapıçısı yaxşı çıxış etdi, bizimki də. Bu üç mərhələdə yaşadıqlarımız komanda üçün böyük təcrübə oldu”.

# “ZİRƏ” “QARABAĞ”I TƏK QOYMADI

Təmsilçimiz “Qarabağ”ın avrokuboklarda azarkeşləri sevindirən nəticələri artıq təəccüblü deyil. Biz hər il bunun şahidi oluruq. Bu baxımdan komandamızın bu həftə Çempionlar Liqasının üçüncü təsnifat mərhələsində cavab oyununda Bolqarıstan “Ludoqorets”ini mübarizədən kənarlaşdırması elə də böyük sensasiya olmadı. Çünki ev oyunundakı məğlubiyyətə baxmayaraq, əksər azarkeşlər cavab görüşündə Qurban Qurbanovun komandanı toparlayacağına, geri dönüşün mümkün olacağına inanırdılar. Düşünülən kimi də oldu. “Qarabağ” çətin də olsa, “Ludoqorets”i mübarizədən kənarlaşdıra bildi. Ağdam klubu oyunun əlavə vaxtında qol şousu da nümayiş etdirdi. İndi komandanı Çempionlar Liqasının pley-offunda Zaqreb “Dinamo”su ilə çətin oyun gözləyir. Bu, ağdamlıların pley-offundakı üçüncü cəhdi olacaq. Komanda ən pis halda Avropa Liqasında Liqa mərhələsinə vəsiqəni təmin edib.

### HƏFTƏNİN SENSASİYASI “ZİRƏ”DƏN GƏLDİ

Bu baxımdan həftənin sensasiyası kimi “Zirə”nin Konfrans Liqasının pley-offuna vəsiqə qazanması qiymətləndirilə bilər. Rəşad Sadıqovun komandası Konfrans Liqasının üçüncü təsnifat mərhələsində “Osiyek”lə (Xorvatiya) iki ağır oyun keçirdi. Komanda iki oyunun gedişində üç dəfə hesabda geri düşsə də, hər iki oyunda son dəqiqələrdə vurulan qollarla əzmkarlığını nümayiş etdirdi. “Dalğa Arena”da keçirilən cavab görüşünün əsas vaxtı 2:2 hesabı ilə başa çatdı, əlavə vaxtda da qol olmayınca, matçın taleyi penaltilər seriyasında həll olundu. Penaltilər seriyasında “Zirə”nin qapıçısı Tiaqo Silvanın rəqibin dörd penalti zərbəsini dəf etməsi xüsusi qeyd edilməlidir. Beləliklə, Rəşad Sadıqovun komandası ilk dəfə olaraq Konfrans Liqasının pley-offunda çıxış etmək hüququ qazandı. Bu mərhələdə komandanın rəqibi “Omoniya” (Kipr) olacaq.



Fotolar: Tapdıq Abdullayev Global Media Group

## FEDERİKO KOPPİTELLİ MƏYUS OLDU

“Osiyek”in baş məşqçisi Federiko Koppitelli isə oyundan sonra keçirilən mətbuat konfransında məyusluğunu gizlədə bilməyib: “Komandam hesabda öndə olanda özünə bənzəmirdi. Beş penaltidən isə birin vura bildik. Nə deyə bilərəm? Bizim bəxtimiz gətirmədi, zədəli oyunçularımız var idi. Komandanın heyətini yaxşılaşdırmaq üçün çox transfer də edə bilməmişik”.

O, “Zirə”nin çox yaxşı komanda olduğunu bildirib: “Onlar Avropa Liqasından bura gəlmişdilər. İlk oyunda son dəqiqədə buraxdığımız qol mövzudan kənar idi. Hesabda 2:1 irəlidə olanda, komandamız bir az sadəlövh oynadı. Ona görə rəqib mərhələ keçdi”.

### “SABAH” MƏYUS ETDİ

“Sabah” isə Konfrans Liqasının 3-cü təsnifat mərhələsində cavab oyununda da azarekşlərini üzüb. Təmsilçimiz evdə İrlandiya “Sent Patriks”i ilə görüşdə yenə də oyunu azlıqda keçirməli olub. Oyunun 27-ci dəqiqəsində mərkəz müdafiəçisi Sofian Çakla qırmızı vərəqə alaraq komandasını azlıqda qoyub. Bundan sonra irlandlar hesabı da açıblar və görüş “Sabah”ın 0:1 hesablı məğlubiyyəti ilə başa çatıb. İrlandiyadakı oyunda da eyni hesabla uduzan təmsilçimiz Konfrans Liqasında çıxışını başa vurub. Qeyd edək ki, pley-off görüşləri gələn həftə keçiriləcək.

Beləliklə, bu mövsüm Avropa kuboklarının pley-off mərhələsində Azərbaycanın iki klubu yarışacaq. Qeyd edək ki, son dəfə Azərbaycanın iki klubu avrokubokların pley-off mərhələsində 2016/17 mövsümündə çıxış edib.



Federiko Koppitelli